# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 71 (3395) Cümə axşamı / 5-11 avqust 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Zəngəzur dəhlizinin iqtisadi perspektivi çox yüksəkdir



**Fatma Yıldırım,**
Milli Məclisin deputatı

***Ermənistanın Azərbaycanla sərhəddə atəşkəsi pozması və paralel şəkildə beynəlxalq təşkilatların məsələyə ikili yanaşmaları davam edir. Belə bir gərgin durumda Azərbaycan imza atdığı beynəlxalq layihələrlə öz mövqeyini necə qoruya bilir. Milli Məclisin deputatı Fatma Yıldırım bu və digər məsələlərlə bağlı hafta.az-a müsahibəsində maraqlı nüanslara toxunub.***

*Ərazilərin bərpası böyük maliyyə vəsaiti və resursların səfərbərliyini tələb edən bir prosesdir*

Səh. 2

# Parlamentdə boş qalan yerlər

***Məlum olduğu kimi, Azərbaycan Milli Məclisinin deputatı Eldəniz Səlimovun səlahiyyətlərinə xitam verildi və o, istintaqa cəlb edildi. Bununla da artıq parlamentdə 6 deputat yeri boş qalır. Beləliklə, parlamentdə boş qalan deputat yerlərinin qanunvericiliyə əsasən necə doldurulması məsələsi gündəmə gəlir. Hafta.az hüquqşünas və siyasətçilərlə açıq qalan bu suala aydınlıq gətirməyə çalışıb. Maraqlıdır, məlum fakta əsasən Parlamentə seçkilər nə vaxt keçirilə bilər? MSK boş qalan yerlərə seçkilərin keçirilməsini nəzərdə tuturmu?***





*“Parlamentin yenilənmə qərarını MSK vermir, amma boş qalan yerlər üzrə qərar verməlidir*

**■ Hüquqşünas Ələsgər Məmmədli hafta.-az-a açıqlamasında bildirib ki, parlament seçkiləri zamanı hansısa dairələrdə yerlər boş qalıbsa, həmin yerlərin doldurulması üçün əlavə seçkilərin keçirilməsi tələb olunur.**

“İlyarımdan çox vaxtdır ki, MSK bu məsələ ilə bağlı yeni seçkilərin keçirilməsini təyin etmədi. Daha sonra davranış qaydalarını pozduqlarına görə ardıcıl olaraq bir neçə deputat yeri boşaldı. Təbii ki, boş qalan yerlər Milli Məclisin qərarvermə prosesinə təsir etmir. Parlament nəticə etibarilə maksimum 95 səslə, digər hallarda isə 83 və ya 63 səslə qərar qəbul edə bilir. Yəni hazırkı say tərkibi parlamentin funksionallığına təsir etmədiyi üçün seçkilərin keçirilməsinə ehtiyac duyulmur. Orta hesabla deputatın 40-50 min seçicisi varsa, yarım milyona yaxın əhali Milli Məclisdə təmsilçisiz qalmış olur”. Hüquqşünas bildirir ki, demokratik cəmiyyətlərdə insanların sözünü çatdırmaq baxımından boş qalan deputat yerləri problem kimi qəbul oluna bilər.

“Düzdür, parlamentin yenilənmə qərarını MSK vermir, amma boş qalan yerlər üzrə qərarı olmalıdır. Yəqin ki, MSK bu istiqamətdə düşünüb ləngimədən məsələni həll etməli, dairələr üzrə seçkiləri müəyyən etməlidir. Prosesi ona uyğun şəkildə də yekunlaşmalıdır”.

**■ Milli Məclisin İntizam Komissiyasının sədr müavini Fəzail Ağamalı bildirir ki, MSK seçkinin keçirilməsi ilə bağlı qərarını verir, gününü təyin edir, ondan sonra da müvafiq qaydalara və Seçki Məcəlləsinin müddəalarına uyğun olaraq vətəndaşlar öz namizədliyini irəli sürür. Müəyyən dövrdən sonra artıq təbliğat-təşviqat işləri başlayır, sonra səsvermə və sonda nəticə bəlli olur.**

F.Ağamalı bir deputatın etik, davranış qaydalarına əməl etmədiyinə görə, Milli Məclisin nüfuzuna xələl gəlməsi ilə bağlı yanaşmalarla razılaşmadığını deyir. “Bir nəfər deputatın qeyri-etik davranışı öz fəaliyyəti ilə ciddi işlər ortaya qoyan Milli Məclisin nüfuzuna zərər gətirə bilməz. Mən heç cür qəbul elə bilmərəm ki, bir nəfərə görə Milli Məclis nüfuzdan düşsün. Bilirik ki, bu yaxınlarda və yaxud bir il öncə dövlət strukturlarında çalışan vəzifəli şəxslər korrupsiya və rüşvətə görə həbs edilib, barələrində cinayət işi, həbs-qəti imkan tədbiri görülüb və cəzalarını aldılar. Bu hal eyni zamanda ayrı-ayrı nazirliklərdə də baş verdi. Bu gün ən müxtəlif strukturlarda bu və buna bənzər faktlar olur. Belə hallar bütövlükdə həmin qurumun işinə kölgə sala bilməz. Yəni o bir nəfər kimdir ki, onun fəaliyyəti kifayət qədər ciddi bir qurumun nüfuzuna kölgə salsın. Mən bu yanaşma ilə razı deyiləm və çıxışlarımda da bunu bildirmişəm. Hər kəs, hər bir vətəndaş öz davranışına görə qanun qarşısında cavab verir. Milli Məclis burada nə edib ki? Əgər Milli Məclis bütövlükdə dövlətin bir qolu olaraq ciddi xətalara yol versəydi, onda belə söyləmək olardı. Bir nəfər dava edib, öz seçicisini döyüb, söyüb. Həmin seçici də Daxili İşlər Nazirliyinin əməkdaşı olub və buna görə cəzasını da aldı, artıq ona qarşı həbs tədbiri seçildi. İstintaq aparılacaq, araşdırılacaq və insidentdə adıçəkilən deputatın, yaxud polisin nə dərəcədə günahkar, yaxud haqlı olduğu müəyyən olunacaq. Təbii ki, bunların hamısı istintaqın predmetidir”. O, insidentdə adıçəkilən Eldəniz Səlimovun bütün platformalarda özünü aktiv bir deputat kimi göstərə bilmədiyini deyərək, belələri “Milli Məclisin işinə kölgə salır” fikirlərini qərəzli, qeyri-obyektiv yanaşma kimi dəyərləndirib.

*“Kimsə mandat əldə edib, “burda mənəm, Bağdadda kor xəlifə” düşüncəsi ilə fəaliyyət göstərirsə, çox böyük səhvə yol verir*

Deputat qeyri-etik davranış qaydaları ilə gündəmə gələn deputatların sayəsində az qala Milli Məclisin buraxılması və yaxud məsələnin referendumda müzakirəyə çıxarılması ilə bağlı səslənən fikirlərə də birmənalı yanaşmayıb.

“Deyirlər ki, Milli Məclis buraxılmalıdır. Adama sual verərlər ki, nəyə görə buraxılmalıdır?.. Milli Məclis bu gün öz işini yüksək səviyyədə görür, qanunlar qəbul edir, siyasi proseslərdə fəal iştirak edir. 44 günlük müharibədə hər bir millət vəkili müharibənin içərisində oldu. Siz jurnalistlərlə bərabər o müharibədə gecəmiz-gündüzümüz oldumu?! Hər birimiz öz imkanlarımız daxilində cəmiyyətin elitar siyasi kəsimi olmaq şərti ilə mübarizə apardıq. Müharibə zəfərlə qurtardı.

**■ Bundan sonra Milli Məclisin sədri Sahibə Qafarova İtaliyaya və digər ölkələrə etdiyi səfərlərdə ən yüksək səviyyələrdə görüşlər keçirdi. Azərbaycanın beynəlxalq siyasi əlaqələrinin inkişafı ilə bağlı ciddi addımlar atıldı.**

Səh. 5

MÜSAHİB



**Tofiq Zülfüqarov,**
Azərbaycanın sabiq xarici işlər naziri

■ Rus sülhməramlılarına toponimlərimizin siyahısını verməliyik...

■ İnanmıram ki, Jirinovski hansısa təlimat əsasında həddini aşıb...

■ Rusiya bizdən xahiş edib ki, Ermənistana sərhədlərin müəyyənləşməsi məsələsində bir az vaxt verək...

Səh. 3

GÜNÜN FOTOSU...



**Yardımlıda meşə zolağında yanğının söndürülməsi əməliyyatları...**

GÜNÜN SİTATI

*“Həqiqətən, dağıdılmış kəndləri, hətta bütöv bir şəhərin xarabalığa çevrildiyini görmək çox təsirləndirici idi”*



**Karol Büro-Bonnar,**
Fransa Milli Assambleyasının deputatı

KARİKATURA



**Bütün savaşlarda çiyin-çiyinəyik. Qardaşlıq bu deməkdir!..**

## Ermənilərdən də təhlükəli onlara vəd verənlərdir

**Elman Məmmədov,**
Milli Məclisin deputatı

Bu xəbərlər Xocalının bütövlükdə Azərbaycanın nəzarətinə keçməsinin çox da uzaqda olmadığını göstərir.

Səh. 3

STATİSTİKA



**■ 2021-ci ilin I yarımili ərzində ölkədə Milli Ödəniş Sistemi (AZİPS, XÖHKS) vasitəsilə aparılan ödəniş əməliyyatlarının ümumi həcmi 98,5 mlrd. manat, sayı isə 35,5 mln. ədəd təşkil edib.**

Milli Ödəniş Sisteminin əsas komponentləri olan iri və təcili ödənişlər üzrə Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (AZİPS) üzrə keçən ödənişlərin sayı 471 min ədəd, həcmi 83,2 mlrd. manat, xırda və daim təkrarlanan ödənişlərin elektron daşıyıcılarla həyata keçirilməsinə imkan verən Xırda Ödənişlər üzrə Hesablaşma Kliring Sistemi (XÖHKS) üzrə isə ödənişlərin say 35,1 mln. ədəd, həcmi 15,3 mlrd. manat olub.



Səh. 6

## Daşkəsən dəmir filizi yatağında son durum

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində zərər vurulmuş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.**

Hafta.az xəbər verir ki, Sərəncama əsasən, Gəncə şəhəri, Ağdam, Goranboy və Tərtər rayonlarında zərər vurulmuş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsinin təmin edilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 7 milyon manat vəsait ayrılıb. Maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Müdafiə naziri azad olunmuş ərazilərdəki bir neçə yeni hərbi hissədə olub



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən azad olunmuş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə tikinti-quruculuq işləri davam etdirilir.**

Müdafiə Nazirliyindən hafta.az-a verilən məlumata görə, Müdafiə naziri general-polkovnik Zakir Həsənov azad olunmuş ərazilərdə yerləşən yeni inşa edilmiş və əsaslı təmirdən çıxmış bir neçə hərbi hissədə olub.

Nazir şəxsi heyətin döyüş hazırlığının səviyyəsini yoxlayıb, döyüş qabiliyyətinin artırılması ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub. Müdafiə nazirinə məruzə olunub ki, komplekslər hərbi qulluqçuların bütün zəruri ehtiyaclarını təmin etmək məqsədilə müasir avadanlıq, mebel və inventarlarla təchiz olunub. Hərbi hissələrdə silah otağı, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqəsi, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı və ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar mövcuddur.

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirən Müdafiə naziri xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunu qiymətli hədiyyələrlə təltif edib. Nazir azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrin şəxsi heyətinin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə müvafiq tapşırıqlar verib. Sonda general-polkovnik Z.Həsənov şəxsi heyətlə birgə nahar edib.

# Dövlət sərhədi istiqamətində mövqelərimiz atəşə tutulub



**Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 4-ü saat 14:50-də Basarkeçər rayonunun Əzizli kəndi ərazisində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyindən hafta.az-a verilən məlumata görə, Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur. Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611 M/h: AZ37NABZ01350100000000001944 S.W.İ.F.T.Bik AIIBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Zəngəzur dəhlizinin iqtisadi perspektivi çox yüksəkdir

## Müsahib

***Ermənistanın Azərbaycanla sərhəddə atəşkəsi pozması və paralel şəkildə beynəlxalq təşkilatların məsələyə ikili yanaşmaları davam edir. Belə bir gərgin durumda Azərbaycan imza atdığı beynəlxalq layihələrlə öz mövqeyini necə qoruya bilir. Milli Məclisin deputatı Fatma Yıldırım bu və digər məsələlərlə bağlı hafta.az-a müsahibəsində maraqlı nüanslara toxunub.***

***- Fatma xanım, 44 günlük müharibədən keçən müddətdə regionun geosiyasi durumu hansı yenilənmələrlə diqqəti çəkir və Azərbaycan əsas aparıcı dövlət olaraq öz mövqeyini necə qoruyub saxlayır?***

- Vətən müharibəsi başa çatandan sonra regionun inkişafı üçün yeni imkanlar açılıb. Azərbaycan və Türkiyə bölgənin inkişafı ilə bağlı çox önəmli təşəbbüslərlə çıxış edir. Bu baxımdan, kommunikasiyaların bərpası böyük önəm kəsb edir. Azərbaycan Prezidenti cənab İlham Əliyev "3+3" platforması ilə çıxış edib. Yeni 6 dövlətin - Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya, İran və Ermənistanın birgə əməkdaşlığı regionun iqtisadi tərəqqisində çox mühüm rol oynaya bilər. Burada Zəngəzur dəhlizi isə müstəsna əhəmiyyət kəsb edir.

Bu dəhlizin açılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm zəfərin nəticəsi olaraq Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları birgə bəyanat əsasında yaradılacaq yeni Zəngəzur dəhlizi uzun illər blokadada olmuş Naxçıvan Muxtar Respublikasını bu şəraitdən çıxarmaqla yanaşı, qədim Zəngəzurun qapılarını da uzun həsrətdən sonra böyük türk dünyasının üzünə açır.

Azərbaycan bölgədə davamlı sülhün bərqərar edilməsi üçün regional əməkdaşlığa böyük önəm verir. Zəngəzur dəhlizinin yaradılması ilə Avrasiyanın nəqliyyat şəbəkəsinin yeni bir damarı açılacaq və bu da bölgə ölkələri arasında iqtisadi və ticarət əlaqələrinə müsbət təsir göstərəcək.

İqtisadi cəhətdən bu dəhlizin perspektivi çox yüksəkdir. Bu barədə yerli və xarici ekspertlər danışarkən, region ölkələri üçün dəhlizin faydalarını xüsusi vurğulayırlar.

Vacib məqamlardan biri Zəngəzur dəhlizinin türk dünyasına verəcək faydalardır. Qardaş Türkiyə bu dəhlizdən istifadə edərək əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu əldə edəcək ki, bu da öz növbəsində ikitərəfli iqtisadi və turizm əlaqələrinin daha inkişafına şərait yaradacaq. Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin Türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək. Bütövlükdə, Zəngəzur dəhlizi türk dünyasını coğrafi baxımdan bağlayacaq ki, bu da türkdilli dövlətlərin arasındakı əlaqələrin daha da möhkəmlənməsinə səbəb olacaq. Fikrimcə, bu amil bütövlükdə türk dünyasını beynəlxalq müstəvidə yeni bir gücə, aktora çevirəcək.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Ermənistanda da başa düşməlidirlər ki, Zəngəzur dəhlizi bu ölkəni böhrandan, yoxsulluqdan xilas olmasında xüsusi rol oynayacaq. Ona görə də, ermənilər revanşist hisslərdən uzaq olmalı, regiondakı əməkdaşlıq təşəbbüslərinə qoşulmalıdır.

Beləliklə, hesab edirəm ki, regionun gələcəyi baxımından nikbin olmağa ciddi əsaslar var.

***- Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarının yaranması region, Azərbaycan üçün nə deməkdir?***

- Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman tarixi və olduqca əhəmiyyətli bir sənəddir. Bu Fərmanın məhz indiki dönəmdə imzalanması çox önəmlidir.

Azərbaycan ərazilərinin 30 illik işğalına son qoyulması, Qarabağın erməni işğalından azad edilməsi iqtisadi rayonlar üzrə bölgüyə yenidən baxılmasını şərtləndirirdi. İqtisadi rayonların yeni bölgüsü Qarabağın və Şərqi Zəngəzurun inkişafını sürətləndirəcək. Fərmanda qeyd edildiyi kimi, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd olunan ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmini üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılması məqsədəmüvafiqdir. Bütün bunlar onu göstərir ki, ölkəmiz üçün müharibədən sonra yeni bir dövr başlayır. Qarabağın işğaldan azad olunması iqtisadiyyatımızın inkişafına böyük töhfələr verəcək. Ümumilikdə, iqtisadi rayonların sayı 10-dan 14-ə çatır. Azərbaycan iqtisadiyyatı ötən illər ərzində üç dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın sürətli inkişafı ilə Azərbaycanın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar yaradıb.

Bu fərman gələcək inkişafımız üçün bir yol xəritəsidir. Eyni zamanda, bu sənəd bir çox mesajları özündə ehtiva edir. İqtisadi rayonların bölgüsü zamanı Qarabağ iqtisadi rayonunda da müəyyən dəyişikliklər əks olunur. İlk növbədə bu bölgü Qarabağ bölgəsinin sürətli inkişafına xidmət edəcək. Bu iqtisadi rayona Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxildir. Bu region özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağı əhatə edir. Mən millət vəkili olara təmsil etdiyim Bərdənin də Qarabağ iqtisadi rayonuna daxil edilməsini əhəmiyyətli hesab edirəm. Biz hər zaman biz deyirik ki, Bərdə Qarabağın qapısıdır. Qarabağın azadlığa qovuşması ilə Bərdə və digər ətraf rayonlar da daha sürətlə inkişaf edəcək.

> *Ərazilərin bərpası böyük maliyyə vəsaiti və resursların səfərbərliyini tələb edən bir prosesdir*

Digər önəmli bir məqam Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılmasıdır. Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılmasının həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Bu iqtisadi rayona daxil olan bölgələrin işğaldan azad edilməsindən sonra böyük inkişaf perspektivi gözləyir. Bu amil ölkəmizin iqtisadi potensialını daha da artıracaq. Eyni zamanda, bu adda iqtisadi rayonun yaradılması bizim gələcəkdə Qərbi Zəngəzura da qayıdacağımızın mesajını verir. Təbii ki, əgər Şərqi Zəngəzur varsa, Qərbi Zəngəzur regionu da var. Bu baxımdan, biz bütün tarixi torpaqlarımıza qayıdacağıq.

***- Müharibədən sonra Azərbaycanın əsas strateji hədəfi azad olunmuş ərazilərin bərpası, infrastrukturun inkişafı, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıdışının təmin edilməsidir. Bu proses necə aparılır və köçürülmə nə vaxta reallaşa bilər?***

- Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində bütün infrastruktur, sosial, iqtisadi, mədəni obyektlər, tarixi, dini abidələr tamamilə məhv edilib. Bu səbəbdən bizi qarşıda çox vacib bərpa-yenidənqurma işləri gözləyir. İşğaldan azad edilmiş şəhərlərimiz və kəndlərimiz yerlə-yeksan olunduğu üçün, sözün əsl mənasında, müasir dövrün tələblərinə uyğun yenidən qurulmalıdır.



**Fatma Yıldırım,**
Milli Məclisin deputatı

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə də bu məsələyə xüsusi diqqət yönəldərək bildirmişdir ki, biz indi böyük quruculuq işlərinə start vermişik. Müharibədən cəmi 9 ay keçib, amma nə qədər böyük işlər görülüb. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə misli görünməmiş bərpa və quruculuq işləri aparılır. Nəyin hesabına? Təbii ki, hazırlıq işləri hesabına. Bugünkü Azərbaycan bütün tarixi boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır.

Ölkə Prezidentinin işğaldan azad olunmuş ərazilərimizə hər səfəri yeni sosial obyektlərin təməlinin qoyulması ilə yadda qalır. Onu da qeyd edim ki, Prezident İlham Əliyevin Sərəncamı əsasında təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" postmüharibə dövründə görüləcək bütün işləri və onların icra mexanizmlərini özündə ehtiva edir.

Ərazilərin bərpası böyük maliyyə vəsaiti və resursların səfərbərliyini tələb edən bir prosesdir. Buna görə də bu mərhələdə iqtisadi güclərin birləşdirilməsi sözügedən prosesin sürətli, şəffaf və səmərəli formada həyata keçirilməsinə şərait yaradacaq. Bilirsiniz ki, Qarabağ Dirçəliş Fondu yaradılıb ki, Fond çox məsuliyyətli bir missiyanı yerinə yetirir. Hazırkı mərhələdə dövlət - özəl sektor əməkdaşlığının Qarabağın dirçəlişinə töhfəsi böyük ola bilər. Belə ki, dövlətin maliyyə və iqtisadi resurslarının sərhədsiz olmadığını nəzərə alsaq, müxtəlif layihələrdə özəl təsisatların bu prosesə cəlb olunması həmin bölgənin bərpa prosesini tezləşdirə və eyni zamanda, qurulan infrastruktur layihələrinin müasirliyini, rəqabət qabiliyyətliliyini artıra bilər.

Hal-hazırda keçmiş məcburi köçkünlərimiz həsrətlə öz yurd-yuvalarına qayıdacağı günü gözləyir. Mən də bir Şuşalı kimi bu prosesləri yaxından izləyərək, qürur hissi keçirirəm. İllərdir, həsrətlə gözlədiyimiz torpaqlara qədəm qoymuşuq, Qarabağın döyünən ürəyi Şuşaya qovuşmuşuq. Uzun illərdən sonra Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, Cıdır düzündə təşkil olunan "Xarıbülbül" festivalı zamanı keçirdiyimiz sevinc və iftixar hisslərini sözlərlə ifadə etmək çox çətindir. Əminəm ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə tezliklə işğaldan azad olunmuş bütün rayonlarımızda belə festivallar və tədbirlər keçiriləcək. Torpaq həsrəti çəkən köçkünlərimizin sevincinin birlikdə şahidi olacağıq.

***- Məlum olduğu kimi, Prezident İlham Əliyevin dəvəti ilə ölkədəki xarici dövlətlərin səfirləri Şuşaya səfər etdilər. Rusiya, Fransa və ABŞ səfirləri bu səfərə qatılmadılar. Nəzərə alsaq ki, hər üç dövlət ATƏT-in Minsk qrupunun həmsədrləridir bu davranış həmin quruma qarşı hansı yanaşmanın vacibliyini ortaya qoydu?***

- Xarici ölkələrin Azərbaycandakı səfirlərinin və beynəlxalq təşkilatların nümayəndələrinin erməni işğalından azad olunmuş Şuşa şəhərinə səfərlərinin təşkil edilməsi önəmli məsələdir. 30 ilə yaxın müddətdə erməni vandalizminin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından bu səfər böyük əhəmiyyət kəsb edir.

Dağlıq Qarabağ münaqişəsinin başa çatmasına baxmayaraq, informasiya müharibəsi davam edir.

Erməni diasporu və lobbisi beynəlxalq müstəvidə Azərbaycan əleyhinə kampaniya aparmaqdadırlar. Ona görə biz də bu məsələdə fəal olmalı və erməni yalanlarının ifşası istiqamətində sistemli tədbirlər həyata keçirməliyik və keçiririk. Müxtəlif beynəlxalq təşkilatların, xarici KİV nümayəndələrinin və digər əcnəbi qonaqların işğaldan azad olunmuş ərazilərimizə səfərlərinin təşkil olunması həmin tədbirlərin tərkib hissəsidir. Bu baxımdan, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Şuşaya səfəri də diqqətəlayiqdir. Bu səfərlər zamanı diplomatlar Ermənistanın 30 illik işğal dövründə Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklərlə əyani surətdə tanış olurlar, bu barədə təmsil etdiyi dövlətləri və beynəlxalq təşkilatları məlumatlandırırlar. Şübhəsiz ki, təkzibedilməz vandalizm, dağıntılar, vəhşiliklər, işğalın çoxsaylı nəticələri və Azərbaycanın bu fonda yaratdığı reallıq Cənubi Qafqazda əməkdaşlıq istiqamətində gələcək addımlarının müəyyənləşdirilməsində mühüm rol oynayacaq.

İşğaldan azad olunmuş ərazilərə səfər edən diplomatların nümayəndəsi olduğu ölkələrinin çoxunda kifayət qədər təsirli imkanlara malik erməni diaspor təşkilatları mövcuddur. Öz nümayəndəsi vasitəsilə vəziyyəti birbaşa müşahidə və təhlil etmək imkanı qazanmış bir dövlət üçün səfirinin rəsmi məruzəsi erməni lobbisinin saxta təbliğatından daha üstündür. Əlbəttə, həqiqət hər kəsə bəllidir, lakin bu səfər hətta fərqli mövqe tutan dövlətləri də mühüm fakt qarşısında qoyacaq. Diplomatlar 30 il ərzində ermənilərin işğal altında saxladıqları ərazilərdə yalnız vandallıq aktları törətdiklərini, heç bir quruculuq işləri aparmadıqlarını əyani olaraq görməklə, kimin işğalçı, talançı, kimin isə ev sahibi olması barədə yekun qənaət formalaşdıracaqlar ki, bu da Azərbaycanın informasiya müharibəsində çox zəruri bir mərhələnin başlanması deməkdir.

Şuşaya səfər edən səfirlər bir daha şahidi oldular ki, bu torpaqların əsl sahibləri kimlərdir. Onlar gördülər ki, əgər ermənilər həqiqətən bu əraziləri öz vətənləri hesab etsəydilər, 30 il ərzində dağıdıcı fəaliyyətlə yox, quruculuqla məşğul olardılar.

Azad edilmiş ərazilərdə törədilən vandallıq aktlarının izləri bu ərazilərin heç vaxt ermənilərə aid olmamasının sübutlarından biridir. Əksinə, Azərbaycanın Vətən müharibəsindən keçən qısa müddət ərzində bərpa işlərinə başlaması bu ərazilərin tarixən ona məxsus olduğunu nümayiş etdirir.

Rusiya, ABŞ və Fransa səfirlərinin Şuşa şəhərinə səfər etməkdəm imtina etməsi isə bu dövlətlərin Minsk qrupunun həmsədrləri kimi gerçək simalarını ortaya qoyur. ATƏT-in Minsk qrupunun həmsədrləri olaraq onların ölkəmizdəki səfirləri azad edilmiş ərazilərə mütləq getməli idilər. Minsk qrupu Ermənistanla Azərbaycan arasında münaqişənin tənzimlənməsinə və uzunmüddətli sülhün bərqərar olmasına töhfə vermək üçün yaradılıb. Şuşaya səfər, həmçinin iki xalq arasında etmadın qurulmasını müəyyənləşdirmək prizmasından da aktual idi. Bütün bunların fonunda həmsədr ölkələrin Azərbaycandakı səfirlərinin Şuşaya səfərindən imtina etmələri əslində onların dolayısı ilə ermənilərin maraqlarına xidmət etməsinin göstəricisidir. Əslində, Azərbaycan xalqı ötən illər ərzində həmsədrlərin fəaliyyətindən narazı olub. Həmsədrlər 30 ilə yaxın müddətdə işğal siyasətinə son qoyulması üçün Ermənistana heç bir təzyiq göstərməyiblər. Səfirlərin Şuşaya getməməsi də Azərbaycan xalqının həmsədrlərə qarşı haqlı münasibətini bir daha təsdiqləyir.

**Tahirə Qafarlı**



**Tofiq Zülfüqarov,**
Azərbaycanın
sabiq xarici işlər naziri

# “Rus sülhməramlılarına toponimlərimizin siyahısını verməliyik”

***Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarovla hafta.az üçün növbəti söhbətimizdə gündəmdə olan bəzi mövzular - Rusiya Dövlət Dumasının deputatı V.Jirinovskinin Azərbaycana qarşı son sərsəm çıxışı və ona reaksiya, Rusiya Müdafiə Nazirliyinin rəsmi saytında Azərbaycan Respublikasının Laçın və Xocavənd rayonlarını “Dağlıq Qarabağın rayonları” kimi təqdim etməsi, Nikol Paşinyanın Ermənistan baş naziri seçilməsindən sonra gördüyü bəzi işlər, Azərbaycan-Ermənistan sərhədlərinin müəyyən olunması və s. müzakirə olundu.***

## Gündəm

***- Tofiq müəllim, sizin “Facebook”da Jirinovskinin son açıqlamalarına qarşı Azərbaycandakı kütləvi və kəskin reaksiyalara münasibətinizlə bağlı paylaşımınızı oxuduq. Hesab edirsiniz ki, pul hesabına müxtəlif dairələrin sifarişlərini yerinə yetirən bir fiqura bu qədər vaxt və enerji ayırmağa dəyməz?! Bəs sizcə, Jirinovski kimisinin sözlərindən daha çox, Rusiya Prezidenti Vladimir Putinin bilavasitə tabeliyində olan Rusiya ordusunun Azərbaycan ərazisində rəsmən sülhməramlı adı ilə müvəqqəti yerləşmiş kontingentinin 10 Noyabr razılaşmasındakı müddəaları pozması və dövlətimizin suverenliyinə hörmətsizlik etməsi ilə bağlı konkret əməllərinə ciddi reaksiya verməyin vaxtı çatmayıbmı?***

- Bilirsiniz, mən yenə də o fikri təkrarlayıram: inanmıram ki, Jirinovski hansısa təlimat əsasında həddini aşıb...

***- Yəni hesab edirsiniz ki, Putinin Jirinovskinin Azərbaycana qarşı belə biabırçı formada danışacağından Putinin xəbəri olmayıb?***

- İstisna etmirəm ki, ümumi danışmaq üçün Jirinovskiyə imkan verilib, amma onun həddini keçməsi artıq özfəaliyyətdir. Biz anlamalıyıq ki, bu hadisə Azərbaycan və Rusiya prezidentlərinin görüşündən az sonra baş verib. Prezidentlərin görüşündə iki vacib siqnalı yada salmalıyıq. Putin tərəfindən Azərbaycan Prezidentinə Ermənistan və Qarabağla bağlı məsələlərin həllində kompromislərə yer verdiyinə görə minnətdarlıq ifadə olundu. İkincisi, İlham Əliyevin də açıqlamasında iki dövlət arasında münasibətlərin çox yüksək səviyyədə olması və bir-birinə etimad haqda fikri öz əksini tapdı. İstisna etmirəm ki, hansısa ermənipərəst dairələrin bu məsələlər xoşlarına getmədiyindən və bura hansısa neqativ elementləri qatmaq üçün Jirinovskiyə Azərbaycana qarşı sifariş olunub. Yenə də deyirəm: hesab edirəm, o, sifariş formasında da həddini keçib. Azərbaycan dövləti və onun rəhbərliyi haqqında siyasətçiyə heç uyğun olmayan fikirlər səsləndirib. Deyəsən, səhvini anlayıb və sonradan başqa açıqlama verib ki, guya onu yanlış başa düşüblər və s. Ona görə də öz mövqeyimi açıqladım ki, Jirinovski kimilərə çox da önəm vermək və vaxt ayırmaq gərək deyil. Bu, onun xüsusiyyətidir. Sifarişləri də yerinə yetirir, o cümlədən bəlkə də Kremlinkiləri də...

***- Sizcə, bəzilərinin hesab etdiyi kimi, Jirinovskinin məlum çıxışı Azərbaycan və Rusiya münasibətlərinə müəyyən mənada xələl gətirdimi?***

- Xeyr. Hesab edirəm, bunun üçün əsas yoxdur. Ən azı, vacib məsələ olan Zəngəzur dəhlizi məsələsində Rusiya və Azərbaycan dövlətlərinin mövqeyi üst-üstə düşür. Ermənilər özləri deyirlər ki, bizə Rusiya tərəfindən 10 Noyabr razılaşmasının maddələrini yerinə yetirməmiz üçün təzyiq var. Bəlkə də elə Putinin də xatırlatdığı kompromis o idi ki, ermənilər xahiş edib ki, Azərbaycan tərəfindən təzyiqlər müvəqqəti olaraq azaldılsın...

***- Cavabsız qalan birinci sualımızda dediyimiz kimi, 10 Noyabr razılaşmasından sonra Rusiya Prezidenti bilavasitə tabeliyində olan ordunun Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqlarındakı bir sıra əməllərinə həddindən artıq güzəştə gedirik. Məsələn, elə Jirinovskinin çıxışından bir gün öncə Rusiya Müdafiə Nazirliyinin sülhməramlı kontingentlə bağlı saytında Laçın rayonu “Dağlıq Qarabağın Laçın rayonu” kimi təqdim edilib. Üstəlik, Rusiya hərbçiləri Laçın dəhlizində yerləşən və heç bir vaxt ermənilərin kompakt şəkildə yaşamadığı Laçın şəhəri və rayonun Zabux kəndində son 30 ilə yaxın işğal müddətində qanunsuz məskunlaşmış ermənilərə yardım ediblər. Yəni sanki onların qanunsuz məskunlaşmasına dəstək veriblər. Bundan bir neçə gün sonra isə Rusiya MN, hafta.az-da da məlumat verdiyimiz kimi, Xocavənd rayonunu da “Dağlıq Qarabağın Martuni rayonu” kimi təqdim edib. Necə hesab edirsiniz, bütün bunlar birbaşa Azərbaycan Respublikasının dövlət suverenliyinə, ərazi bütövlüyünə təhdid, hörmətsizlik sayılmırmı? Ən azı, Prezident İlham Əliyev dəfələrlə açıq şəkildə üzünü bütün dövlətlərə və beynəlxalq təşkilatlara tutaraq bildirib ki, Azərbaycan Respublikasının rəsmi inzibati bölgüsündə “Dağlıq Qarabağ” adlı ərazi vahidi yoxdur. Rusiya MN bir ilə yaxındır ki, həmin ifadəni rəsmi məlumatlarda işlədir. Odur ki, Jirinovski məsələsindən öncə Xarici İşlər Nazirliyi Laçın rayonu ilə bağlı məsələyə reaksiya verməli, hətta Rusiyaya nota verməli deyildimi?***

- Bilirsiniz, belə məsələlərdə nota verilməsinin tərəfdarı deyiləm. Təcrübəmdən bilirəm ki, hansısa dövlətə nota konkret rəsmi siyasi məsələyə görə verilməlidir. Hesab edirəm ki, bu tip məsələlərdə Xarici İşlər Nazirliyi sözçüsünün şərhinə daha çox üstünlük verilməlidir. Bununla yanaşı, Azərbaycan tərəfdən Rusiya sülhməramlı kontingentinin rəhbərliyi ilə bilavasitə kontaktda olan qurum və məsul şəxslər belə məsələləri mütəmadi olaraq onların nəzərinə çatdırmalıdır. Onlar müzakirələrdə Azərbaycan Respublikası ərazisinə aid hansı rəsmi terminlərdən istifadə olunmasını Rusiya hərbçilərinin nəzərinə çatdırmalıdırlar. Yaxşı olar ki, biz tərəfdən əlaqədar şəxslər bilavasitə Rusiya hərbi kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan əraziləri ilə bağlı işlənməli olan coğrafi və inzibati toponimlərin, adların siyahısını həmin kontingent rəhbərliyinə təqdim etsin. Bunu Müdafiə Nazirliyinin mətbuat xidməti də edə bilər. Bu da onların rəsmi şifahi və yazılı açıqlamalarında bu cür yanlış söz və ifadələri işlətmələrinin qarşısını alar və gələcəkdə belə problemlər olmaz. Hiss olunur ki, Laçında və Qarabağda erməni əhali arasında yerləşdiklərindən, Rusiya hərbçiləri də onların işlətdiyi terminlərdən yararlanırlar...

> “
>
> *İnanmıram ki, Jirinovski hansısa təlimat əsasında həddini aşıb*
>
> *Rusiya bizdən xahiş edib ki, Ermənistana sərhədlərin müəyyənləşməsi məsələsində bir az vaxt verək*

***- O da var ki, Azərbaycan ərazisindəki Rusiya hərbi kontingentinin verdiyi rəsmi məlumat Moskvadan - bilavasitə Rusiya Müdafiə Nazirliyinin süzgəcindən keçir...***

- Lap Moskvadan olsun... Lazımdırsa, Rusiya Müdafiə Nazirliyinin müvafiq qurumları ilə də mütəmadi kontakt qurub onlara sadaladıqlarımızı anlatmaq gərəkdir...

Yadımdadır ki, biz 1990-cı illərdə rəsmi sənədlərdə, o cümlədən Azərbaycan mətbuatında Qarabağ məsələsi ilə bağlı işlənməli olan rəsmi söz və terminlərin siyahısını tərtib etmişdik və Prezident Aparatı da bunu daxili təlimat kimi müvafiq qurumlara çatdırmışdı. İndi də bu təcrübədən həm daxili, həm xarici auditoriya çərçivəsində yararlanmaq olar. Qarabağdakı Rusiya kontingentinə, eləcə də Moskvaya - Rusiya Müdafiə Nazirliyinə belə bir toplum tərtib edib göndərsək, sabah onlar bilərəkdən, ya bilməyərəkdən yanlışlığa yol verəndə deyə bilərik ki, axı biz bu mövzuda sizləri məlumatlandırmışıq, niyə belə edirsiz...Yəni o halda ciddi irad tutmaq üçün əlimizdə belə əsas da olar... İndi desən, deyəcəklər ki, bağışlayın, bizim məlumatımız olmayıb...

***- Yəni belə çıxır ki, Xarici İşlər Nazirliyindən öncə Müdafiə Nazirliyi kimi qurumlar Qarabağla, Laçın dəhlizi ilə bağlı belə məsələlərə reaksiya verməlidir?***

- Bəli, yəni öncə dediyim kimi, Rusiya sülhməramlıları ilə bilavasitə mütəmadi əlaqədə, kontaktda olan qurumlar bunu etməlidir. Ola bilər, bu, təhlükəsizlik, xüsusi xidmət qurumları da olsun... Onlar Rusiya hərbi kontingentinin mətbuat, məlumat yayımı işlərinə baxan qurumu ilə əlaqəyə girməlidir. Bildiyimə görə, Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzində də mətbuatla bağlı qurum var...

***- Olsa da, onların səsi-sorağı eşidilmir axı... Heç bir məlumat da vermirlər. Biz jurnalistlər dəfələrlə bu məsələni qaldırırıq ki, onların Azərbaycan mediası ilə mütəmadi əlaqəsi olmalıdır...***

- Səsləri çıxmırsa, biz onları səsləndirməliyik. Bizim ərazimizdədirlər... Müvafiq qurumlar mütəmadi olaraq onların iştirakıyla hansısa tədbirlər təşkil etməli, hətta yeyib-içmək verməlidirlər. Real iş budur, belə işləmək lazımdır... Yəni Qarabağla, Laçın dəhlizi ilə bağlı hansısa məsələlərə siz jurnalistlər, biz şərhçilərin münasibət bildirməsi ilə iş bitmir axı... Rəsmi qurumlar insanları, xalqı narahat edən bu cür məsələlərə diqqət yetirmək üçün ciddi işləməlidirlər...

***- Tofiq müəllim, Paşinyan yenidən Baş nazir seçilib təyin olunandan dərhal sonra Ermənistan parlamenti cinayət məcəlləsinə “siyasətçilərin təhqir edilməsinə görə həbs cəzası” nəzərdə tutan dəyişikliyi qəbul edib. Yəni bundan sonra sosial şəbəkədə, yaxud ictimai yerlərdə təhqirə yol verənlər 140 dollar cərimə ediləcək, təhqirlər davam edəcəksə, bir aydan üç aya qədər həbs cəzası alacaq. Bəzi şərhçilər hesab edir ki, bu yaxınlarda Azərbaycanla Ermənistan arasında yeni sərhəd müqaviləsi imzalanacağı istisna olunmur və Paşinyan həmin müqaviləyə imza atdıqdan sonra ölkə daxilində ona qarşı yeni etiraz, yeni təhqir dalğasının önünü kəsmək üçün cinayət məcəlləsinə belə dəyişiklik etdirib. Siz necə düşünürsünüz bu haqda?***

- Bunun bilavasitə sərhəd məsələsi ilə əlaqəsini görmürəm hələ ki... Öz hakimiyyətini gücləndirmək üçün Paşinyandan gözlənilən bir addım idi. Bu baxımdan mediadakı məlumatlardan da hiss edirik ki, onsuz da 10 Noyabr razılaşmasından bəri Paşinyana qarşı böyük bir ittihamlar, təhqirlər dalğası var. Onu açıq-açığına “dövlətə, xalqa xəyanətdə” günahlandırırlar. Əslində, sərhədlərin müəyyənləşdirilməsi məsələsi Ermənistan üçün prinsipial bir mövzu olmalıdır. Rəsmi İrəvan Azərbaycanın haqlı şərtlərini qəbul edəcəyi halda konstitusiyalarını da, müstəqillik haqqında bəyannamələrini də dəyişməlidir. Ona görə ki, hər iki dövlət sənədində Azərbaycana qarşı ərazi iddiaları mövcuddur.

Yəni Ermənistanın bütövlükdə dövlətçilik konsepsiyası dəyişməlidir. Təsəvvür edin ki, 30 il ərzində bəslədikləri, həyata keçirməyə çalışdıqları “miatsum”, yəni Qarabağı rəsmən Ermənistana birləşdirmək layihəsi hərbi məğlubiyyətdən sonra artıq iflasa uğrayıb və rəsmi ideoloji-siyasi fəsadlara da gətirib çıxarıb. Yenə də deyirəm, bəlkə buna görə Rusiya bizdən xahiş edib ki, Ermənistana sərhədlərin müəyyənləşməsi məsələsində bir az vaxt verək. Məqsəd Paşinyan hakimiyyətinə ictimaiyyəti deyilənlərin icrası üçün hazırlamasından ötrü vaxt qazandırmaqdan ibarətdir. Hər halda əsas məsələ ondan ibarətdir ki, Azərbaycan sərhədlərin müəyyənləşməsi mövzusunda israrlıdır və bizim israrlı olduğumuzu vaxt verdiyimiz tərəf də qəbul edir. Gözləyək, bir az da səbir görək... Əminəm ki, bu məsələ bir az gec də olsa, müsbət həllini tapacaq...

✍ **Sultan Laçın**

---

## Müsahib

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı, qoşun xidmətinin təşkili və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər davam edir. Xocalı rayonu ərazisində yeni hərbi hissənin açılışı, eləcə də erməni quldurlarının rayonu tərk edərkən silahlarını qoyub qaçmaları ilə bağlı yayılan rəsmi məlumatlar Azərbaycan ictimaiyyətində böyük həyəcan yaşatmaqla yanaşı, azad olunmuş torpaqların tam olaraq dövlətin nəzarətinə keçməsi ilə bağlı perspektivin yaxında olduğunu bir daha ortaya qoydu.***



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

# Ermənilərdən də təhlükəli onlara vəd verənlərdir

Bu və digər məsələlərlə bağlı Milli Məclisin deputatı Elman Məmmədovun hafta.az-a müsahibəsini təqdim edirik...

***- Elman müəllim, ilk növbədə, istərdim Xocalıda Azərbaycanın yeni hərbi hissələrinin yaranması və bu hadisənin perspektivdə ölkəmiz, işğaldan azad edilən rayonlarımızda hansı üstünlüklərdən xəbər verməsi ilə bağlı gözləntilərinizi bildirəsiniz. Bu, regionda hansı prosesin inkişafına təkan verəcək?***

- Xocalı rayonunun ərazisi çox böyükdür. Xocalının bir neçə kəndi 44 günlük müharibə zamanı düşmən işğalından azad olunub. Bu kəndlər Xocalı rayon mərkəzindən, təxminən, 20 kilometr məsafədə, Şuşa şəhəri yaxınlığında yerləşir. Təsəvvür edin, Şuşa şəhəri, Cıdır düzü, ortada böyük yarğan - dərədir, dərənin o biri üzü Topxana meşəsidir və Topxana meşəsindən o tərəfdə həmin o kəndlərdir. Orada ermənilər də yaşayırlar. Həmin dediyiniz hərbi məntəqələr, postlar da o ərazilərdə yaradılıb. Eyni zamanda, hələ müharibə yenicə qurtaran dövrdən də Xocalı Polis Şöbəsinin əməkdaşları növbə ilə qruplarla həmin kəndlərdə xidmət aparırlar. Hal-hazırda da Xocalı Rayon Polis Şöbəsinin əməkdaşları xidmət aparırlar. Bizim hərbçilərimiz həmin kəndlərdə, həmin ərazilərdədir. Ermənilərin qoyub qaçdığı silah-sursat da orda vaxtaşırı tapılır, götürülür. Bunu Xocalı ilə bağlı ümumi təsəvvürün yaranması üçün qeyd etdim. İnanıram ki, bu xəbərlər Xocalının bütövlükdə Azərbaycanın nəzarətinə keçməsinin çox da uzaqda olmadığını göstərir. Xəritəyə də baxanda görürük ki, Xocalıya ən yaxın yol Ağdamdan keçir. Ağdamdan Xocalıya 16 kilometr məsafədir. Xocalıda soyqırımı törədiləndə biz ordan Ağdama gəlmişik. İnşaallah yaxın vaxtlarda Ağdamdan da düşməndən azad olunmuş Xocalımıza qayıdacağıq.

***- Ermənilər öz köhnə havasındadır və yenə də atəşkəsi tez-tez pozur, dinc dövrdə də yaralı və şəhidlərimiz var. Bütün bunlar hansı ehtimalı önə çıxarır? Ermənistanın müharibə ritorikası bitmirsə, regionun III savaşa hazırlandığını söyləmək olar?***

- Hər şey ola bilər. Ermənilərdən ən təhlükəlisi ermənilərə vəd verənlərdir. Erməniləri arxayın eləyənlərdir, erməniləri bu təxribatlara şirnikləndirənlərdir, onların havadarlarıdır. Ermənilər tarix böyu bu havadarlara arxayın olub axmaq xəyallara düşüblər.

Tarix bunu XX əsrin əvvəllərində də sübut elədi. Bu gün də belə oldu və 44 günlük müharibə onların mənfur istəklərinə nöqtə qoydu. Yenə də bunlar özlərinin o mürdar niyyətlərindən, xam xəyallarından əl çəkmirlər. Ona görə də hesab edirəm ki, erməni işğalçılarına vurulan zərbələrin yarımçığı qalıb, tamamlamaq lazımdır.

Dəmir Yumruq yenidən işə düşməli və məkirli ermənininin başı tam əzilməlidir. Başqa bir çıxış yolu qalmır. Bunlar başlarına gələnlərdən nəticə çıxartmağı bacarmırlar, çıxarmaq da istəmirlər. Yenidən o düşmənçilik, işğalçılıq, o ərazi iddialarında, niyyətlərindədirlər və onu həyata keçirmək üçün yenidən müxtəlif yaramaz hərəkətlərə əl atırlar. Bir daha təkrara edirəm ki, bunların özlərindən daha çox təhlükəli, bunları belə təxribatlara həvəsləndirən qüvvələrdir. Bu qüvvələr də hamıya məlumdur.

***- Elə həmin qüvvələrdir ki, biz onların ABŞ Konqresində Azərbaycanın ziddinə olan 907-ci düzəlişlə bağlı qətnamə qəbul etmək niyyəti ilə çıxış etdiklərini görürük.***

- Amerika Birləşmiş Ştatlarının erməni məsələsində mövqeyi 100 ildən çox bir müddətdə, hələ XIX əsrin sonlarında XX əsrin əvvəllərində də məlum idi; Fransa, Rusiya da onun kimi. Sonda nöqtəni Azərbaycan əsgəri, Azərbaycan Ordusu qoydu. O cümlədən, yaxın tariximizə nəzər salaq: 907-ci düzəliş nə vaxt Azərbaycana tətbiq olunmuşdu - ermənilər tərəfindən 1992-ci ildə Xocalı soyqırımı törədiləndən sonra... ABŞ-ın ədaləti, demokratiyası budurmu?!

Bu gün Azərbaycan iqtisadi cəhətdən kifayət qədər güclənib. Görün, Avropa İttifaqı nə etdi; 30 il zərər çəkmiş, işğala məruz qalmış, ərazisi darmadağın edilmiş, 1 milyondan artıq insanı qaçqın-köçkün salınmış dövlət Azərbaycan ola-ola Ermənistana 2.6 milyarddan çox yardım ayırdı. Bu nə demokratiyadır?! Azərbaycanla bağlı sözdə yüngülvari səsləndirdilər ki, 150 milyon ayıracaqlar. Təpələrinə dəysin onların bu yardımı! Azərbaycanın onların puluna ehtiyacı yoxdur. Azərbaycan özü-özünü təmin edib dolandırır.

> “
>
> *Bu xəbərlər Xocalının bütövlükdə Azərbaycanın nəzarətinə keçməsinin çox da uzaqda olmadığını göstərir*

***- Son vaxtlar Paşinyan manevr edir və ATƏT-in Minsk qrupunun fəaliyyətinin bərpasını və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hərbi qoşunlarının Azərbaycanla sərhəddə dayanmasını təklif edir. Bununla Ermənistan rəsmiləri kimə və hansı mesajlarını verirlər?***

- Ermənilər bütün tarix boyu bu məsələlərdə mahir oyunçu kimi çıxış ediblər. Onlar bu gün də bir tərəfə yox, iki tərəfə oynayan oyunçulardır. Bir tərəfdən rusa yalvarır ki, mənim təhlükəsizliyimi, sərhədlərimi qoru, ordunu Azərbaycan sərhədlərinə yerit. Bir tərəfdən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı gəlib sərhəddə sülhməramlı rolunu oynamalıdır. Digər tərəfdən, ATƏT-in Minsk Qrupunun digər həmsədr dövlətini - Amerika ilə Fransanı da regiona çağırır. Yəni kimdən pul alacaq, kimdən silah alacaqlar erməniləri qızışdırırlar ki, vaxtaşırı bu təxribatları, terorları törət, biz də sənə siyasi dəstək verəcəyik ki, sən haqlısan. Ancaq Azərbaycan sözünü deyib, öz ərazi bütövlüyünü təmin eləyib. Azərbaycan öz sərhədlərinin təhlükəsizliyini təmin eləməyə qadirdir, heç kimə də ehtiyacı yoxdur.

✍ **Tahirə Qafarlı**

# Ələt İqtisadi Zonası

## Layihə

***Bu gün dünyanın aparıcı ölkələrində azad sahibkarlığın inkişaf etdirilməsi, liberal iqtisadiyyatın təşviqi üçün müxtəlif iqtisadi modellər tətbiq olunur. Azərbaycanda da sahibkarlığın inkişafının yeni modellərinin tətbiqi, bu istiqamətdə ən yaxşı təcrübələrin öyrənilərək həyata keçirilməsi istiqamətində zəruri addımlar atılır. Bu yaxınlarda Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulan Ələt Azad İqtisadi zonası da dünyanın ayrı-ayrı ölkələrindəki oxşar qurumların müsbət təcrübəsindən bəhrələnməklə yeni yanaşma nümayiş etdirir.***



**Ekspertlər hesab edirlər ki, bu zona qeyri-neft sektorunun daha da inkişaf etdirilməsinə xüsusi imkan yaradacaq**

Belə ki, burada həm ölkəmizin regional inkişaf amili, həm də investorların rahatlığının təmin edilməsi maksimum dərəcədə nəzərə alınıb. Ələt Azad İqtisadi Zonasına yatrım edəcək investorlar, eyni zamanda, mükəmməl infrastruktura malik iki transmilli nəqliyyat marşrutuna çıxış imkanı qazanacaqlar. Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının funksionallığının təmin olunması üçün geniş fəaliyyət planının olduğunu diqqətə çatdıraraq yeni zonanın önəmini vurğulayıb: "Bu zonanın yaradılması ideyasının təməlində bizim siyasətimiz dayanır. Xüsusilə son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar görülən işlər bu zonanın yaradılmasına təkan vermişdir. Biz gördük ki, qeyri-neft sektoruna qoyulan sərmayə daha çox dövlət sərmayəsidir, yaxud da ki, yerli şirkətlərin sərmayəsidir. Xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər. Ona görə, bu zonanın yaradılması, əminəm ki, Azərbaycanın qeyri-neft sektorunun, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir. Eyni zamanda, burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və bizim qeyri-neft sektorumuzun ixrac imkanları genişlənəcək. Beləliklə, bir ildən sonra - gələn ilin iyul ayında zona investorları qəbul etməyə hazır olacaq. Əminəm, biz görəcəyik ki, bax, burada göstərilən mənzərə həyatda öz əksini tapacaq. Çünki bu günə qədər bütün təşəbbüslərimiz, bütün planlarımız həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb. Bunları sadalamağa ehtiyac yoxdur, hər kəs bilir söhbət nədən gedir. Ona görə, bu zonanın yaradılması, əminəm ki, uğurumuzun növbəti addımı olacaqdır". Məlumat üçün bildirək ki, Dünya Bankının hesabatlarına əsasən, hazırda dünyanın 130 ölkəsində 4000-dən çox xüsusi iqtisadi zona mövcuddur . Bu zonaların qlobal ixracda çəkisi 200 milyard dollardan artıqdır. Azad İqtisadi Zonanın fəaliyyəti yalnız yerləşdiyi ölkənin ərazisinə deyil, qonşu ölkələrində iqtisadiyyatına müsbət impuls verməkdədir.Qeyd edək ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektar olacaq. İqtisadi zonanın ümumi sahəsinin 60 hektarında layihələndirilmə artıq başa çatıb və inşaat işləri başlayıb, bütün infrastrukturun yaradılması üçün zəruri addımlar atılıb.

Azərbaycan İqtisad Universitetinin professoru, iqtisad elmləri doktoru Əli Əlirzayev deyir ki, Azərbaycan tək Ələtdə deyil, digər regionlarda da bu cür azad iqtisadi zonalar yarada bilər: "Azad iqtisadi zonanı yaratmaq üçün müəyyən potensial olmalıdır. Bu layihəni həyata keçirən ölkə investisiya axınını gücləndirməlidir. Azad iqtisadi zonaların yaradılması Azərbaycan iqtisadiyyatının mühüm istiqamətlərindən biridir. Bu cür layihələrin Azərbaycan üçün xeyri ondan ibarətdir ki, investisiya axını təmin olunacaq. Azad iqtisadi zonada əsas şərtlərdən biri də vergi amilini tənzimləməkdir. Yəni müəyyən mənada vergilərin ləğv olunması deməkdir. Burada əsas məqsədlərdən biri də keyfiyyətli məhsul istehsal edib dünya bazarına ixrac etməkdir. Ölkəmiz üçün bu cür layihələrin həyata keçirilməsinin böyük əhəmiyyəti var. Bizim əsas məqsədlərimizdən biri qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bunu da yalnız neft sektoru ilə deyil, qeyri-neft sektoru ilə də həyata keçirməliyik. Biz digər sahələrə önəm verdikcə iqtisadiyyatımız daha da inkişaf edəcək".

*"Ələt Azad İqtisadi Zonasının xüsusən qeyri-neft məhsulların istehsalı baxımından yeni sərmayələrin cəlb edilməsinə imkan verəcəyi gözlənilir*



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

■ **İqisadçı-ekspert Rəşad Həsənovun fikrincə isə sözügedən zona müasir texnologiyalara əsaslanan və daha yüksək dəyərtutumlu iqtisadiyyatın formalaşması üçün bir baza rolunu oynaya bilər: Azərbaycanda əslində xüsusi iqtisadi zona uzun illərdir tətbiq olunur. Məsələn, sənaye məhəllələri, sənaye parkları, aqroparklar, turizm rekreasiya zonaları və s.** Bunlar əslində xüsusi iqtisadi zona anlayışlarının bu günə qədər tətbiq olunmuş və tətbiq olunmaqda olan növlərindəndir. Azad iqtisadi zona olaraq Ələt İqtisadi Zonası Azərbaycanda tətbiq olunan ilk model olacaq. Bura sahibkarlıq subyektlərinə, xüsusən də xarici investorlara gömrük vergi güzəştləri təmin etməklə və eyni zamanda müəyyən infrastruktur formalaşdırmaqla və həmin sahibkarlıq subyektlərinin nəqliyyat-kommunikasiya imkanlarına çıxış imkanlarını asanlaşdırmaqla iqtisadi fəaliyyətlərlə məşğul olmaları üçün nəzərdə tutulmuş zonadır. Bu zonanın fəaliyyəti haqqında bildiyiniz kimi qanun da qəbul olunub. Bu qanunun qəbul edilməsi üçün zərurət var idi. Xüsusən də xarici sərmayədarlar sürətli qanun dəyişikliyi halında uzunmüddətli investisiya planlaşdırmasını apara bilmirlər. Onlara daha etibarlı, uzunmüddətli dövrdə daha dayanıqlı olan biznes mühiti lazımdır. Məhz bu zərurət azad iqtisadi zona haqqında qanunun qəbul olunmasını şərtləndirdi. Qanun zonada fəaliyyət göstərən rezidentlərin mülkiyyət hüququ, onların investisiyalarının repatriasiyası şərtləri və eyni zamanda fəaliyyətləri zamanı yaranan vergi və gömrük öhdəlikləri üzrə güzəştləri özündə ehtiva edir. Bundan başqa onların xüsusi şərtlər daxilində arbitraj məhkəməsi olacaq. Bura həm də müasir texnologiyalara əsaslanan və daha yüksək dəyərtutumlu iqtisadiyyatın formalaşması üçün bir baza rolunu oynaya bilər. Xarici bazarlarla əlaqələrin genişlənməsinə ciddi töhfə verəcək. Azərbaycanlı sahibkarlar xarici bazarlarla daha yaxşı işləyə bilmirlər. Bu istiqamətdə təcrübə zəifdir.

Qeyd edilən xarici sərmayədarların hazır təcrübələri, hazır bazarları var. Eyni zamanda təbii ki, vəsaitlə birlikdə bütövlükdə bu üç komponenti özündə birləşdirən ciddi iqtisadi imkan formalaşdıracaq. Azərbaycan iqtisadiyyatı ilə münasibətdə mal və xidmətlərə yaranan tələb fonunda müəyyən multiplikativ effekt yaradacaq. Eyni zamanda Azərbaycanın əsas iqtisadiyyatının iştirakçıları üçün Ələt Azad İqtisadi Zonasında təşkil olunan mal və xidmətlər daha aşağı qiymətlə əldə etmək imkanı yaranacaq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

### Ekspert rəyi...

■ **Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin üzvü Vüqar Bayramov da hesab edir ki, Ələt Azad İqtisadi Zonası Azərbaycanda qeyri-neft sektorunun inkişafı və bütövlükdə Azərbaycan iqtisadiyyatına investisiyaların cəlb edilməsi baxımından vacib layihədir:**

"Ümumiyyətlə, iqtisadi zonalarla bağlı xüsusi qanun qəbul olunduğundan Ələt Azad İqtisadi Zonası praktik olaraq beynəlxalq hüquqla tənzimlənir. Bu hasilatın pay bölgüsünə uyğun statusun verilməsidir. Bu da sərmayələrin cəlb edilməsi, xüsusən aparıcı xarici şirkətlərin Ələt Azad İqtisadi Zonasına investisiya qoyuluşunun təşviq edilməsi baxımından vacibdir. Eyni zamanda Azərbaycan hökuməti tərəfindən burada ilkin infrastruktur formalaşdırılır. Bu da məhz xarici investisiyaların cəlbi baxımından vacibdir".

Onun fikrincə, Ələt Azad İqtisadi Zonasının xüsusən qeyri-neft məhsulların istehsalı baxımından yeni sərmayələrin cəlb edilməsinə imkan verəcəyi gözlənilir:

"Bu, istehsal olunan məhsulların bir qisminin daxili, bir qisminin xarici bazarlara çıxışını təmin edəcək. Eyni zamanda Ələt İqtisadi Zonası Azərbaycan üçün texnoloji investisiyaların cəlb edilməsi baxımından vacib hesab olunur. Güman olunur ki, yeni iş yerlərinin, xüsusilə ixtisaslı kadrların işlə təmininə müsbət təsir göstərəcək. Bütövlükdə Ələt İqtisadi Zonasının yerləşmə coğrafiyası elədir ki, orada istehsal edilən məhsulların ixrac baxımından kifayət qədər böyük üstünlükləri var. Bu, bir tərəfdən qeyri-neft sektorunda istehsal edilən məhsulların həcminin artmasına və bütövlükdə sektorun inkişafına zəmin yaradacaq. Həmçinin daxili bazara daha çox yerli istehsal olan məhsulların çıxarılmasına imkan verəcək. Nəzərə alsaq ki, Ələt paytaxta yaxın ərazidir, təbii ki, ixtisaslı kadrların daha yüksək maaşlı işlə təmin olunmasına şərait yaradacaq. Bura xüsusən aparıcı şirkətlərin sərmayə yatıracağı proqnozlaşdırılır".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# "Daşaltıdakı ermənilər Şuşanın Malıbəyli kəndinə yerləşdirilib..."

## Qarabağ

***Xəbər verdiyimiz kimi, Qarabağdakı separatçı-terrorçu erməni rejimi tör-töküntülərinin rəhbərliyi Hadrutdan köçmüş ermənilərin bir hissəsini Şuşa rayonunun Malıbəyli kəndində yerləşdirmək niyyətindədir.***



Kriminal xunta bu məqsədlə "Stepanakertin (Xankəndi - S.L.) Açapnyak rayonu" adlandırdıqları kəndin ərazisində 2022-ci ilin sonunadək "bütün müasir tələblərə cavab verən 240 mənzildən ibarət 15 bina tikməyi" planlaşdırır...

■ **1992-ci ilin fevralında Şuşa rayonunun Malıbəyli, eləcə də Yuxarı və Aşağı Quşçular kəndlərinin sakinlərini erməni terrorçularının mühasirəsindən çıxarılmasında böyük rolu olmuş keçmiş tabor komandiri, ehtiyatda olan kəşfiyyatçı polkovnik Azay Kərimov hafta.az-a açıqlamasında bəhs edilən xəbərə münasibətini bildirib.**

"Əvvəla, hafta.az saytının rəhbərliyi və kollektivinə 30 ilə yaxındır ki, həsrəti ilə yaşadığımız doğma Malıbəyli kəndimizin hazırkı durumu haqdakı məlumata görə təşəkkür edirik. Kəndimizin keçmişi barədəki məlumatlara bir neçə əlavə də etmək istərdim... Malıbəylidə biri kəndin mərkəzində, digəri isə yuxarı hissədə olmaqla XVIII əsrə aid iki məscid olub. Onların minarələri olmasa da, daxili quruluşları Şuşadakı Gövhərağa məscidlərinin memarlığına uyğun idi. Malıbəylidə də eynilə Şuşadakı "Məşədi İbad" hamamı kimi qədim hamam mövcud olub... Araşdırmaçı jurnalist Vasif Quliyev də təsdiqləyir ki, Azərbaycanda Qax rayonunun İlisu kəndindən sonra respublikamızda ən çox ziyalı, alim, akademik, ixtiraçı, həkim, müəllim, hərbçi və s. yetişdirən kənd olub. Kənddə böyük təsərrüfatlarına malik taxılçılıq, tərəvəzçilik, südçülüklə məşğul olan sovxoz fəaliyyət göstərirdi. Atam Allahyar Kərimov xeyli müddət həmin sovxozun direktoru işləyib. Demək olar ki, respublikada ən böyük və məhsuldar taxıl sahələrinə malik kəndlərdən biri də Malıbəyli idi...

Sovet dövründə Malıbəylidə iki zavod filialı fəaliyyət göstərirdi ki, biri Bakı lampa zavodununku idi. Kəndin 150-160 sakini orada işləyir və yaxşı əməkhaqqı alırdı. Digəri isə Bakı radiozavodunun filialı idi. Yadınızdadırsa, Bakıda "Xəzər" radioqəbuledicisi buraxılırdı. Həmin radioqəbuledicilərdən bizim kənddə də buraxılır və o zavodda da onlarla həmkəndlimiz çalışırdı", - deyə həmsöhbətimiz əlavə məlumat verib.

"O ki qaldı hazırda Malıbəyli kəndinə, Hadrutdan köçən ermənilərin yerləşdirilməsinə... Bildiyiniz kimi, bu saat Malıbəyli camaatı Bakının Sabunçu rayonunda salınmış "Ramana-450" qəsəbəsində onlar üçün tikilmiş yeni evlərdə yaşayır. Onu da deyim ki, bəlkə də Malıbəyli Qarabağda işğal olunmuş yeganə kənddir ki, sakinləri Azərbaycanın onlarca rayonuna səpələnməyib, hamısı kompakt olaraq bir yerdə yaşayır.

Buna 1992-ci ilin fevralında dörd tərəfdən mühasirədə qalmış kənddən döyüşə-döyüşə çıxmağa məcbur olarkən ağsaqqallarla birlikdə könüllü tabor komandiri kimi mənim də səylərim nəticəsində nail olduq. Yaşadığımız qəsəbədə də Malıbəyli sakinləri normal həyat üçün dövlət tərəfindən hər şeylə təchiz olunub. Çoxları evinin yanında oğluna da, qızına da ev tikib. Bütün bunlara rəğmən malıbəylilər bir nəfər kimi öz torpaqlarına, özü də Şuşa şəhərinə, yaxud başqa kəndə yox, məhz Xankəndi şəhərinə bitişik olan doğma Malıbəyli kəndinə qayıtmaq istəyirlər. Yəni mən də daxil olmaqla hamımız öz kəndimizə dönmək istəyindəyik. Təəssüf ki, hazırda doğma kəndimiz, sizin də yazdığınız kimi, hələ də separatçı erməni rejiminin nəzarətindədir və oraya Hadrutdan köçən erməniləri yerləşdirmək istəyirlər. Buna mane olmaq üçün isə əlimizdən bir iş gəlmir... İnşAllah, dövlətimizin və ordumuzun tezliklə düşmənin bu təxribatlarının da qarşısını alacağına və doğma kəndimizə qayıdışımıza şərait yaradacağına ümid edirik...

*"Malıbəylilər bir nəfər kimi öz torpaqlarına, özü də Şuşa şəhərinə, yaxud başqa kəndə yox, məhz Xankəndi şəhərinə bitişik olan doğma Malıbəyli kəndinə qayıtmaq istəyirlər*

Əldə etdiyimiz son məlumatlara görə, Daşaltı kəndindən də çıxan ermənilərin hamısı Malıbəyliyə köçürülüb və hazırda orada yaşayır.

Onu da deyim ki, Şuşa rayonunun 37 kəndindən Malıbəylidən savayı yalnız Turşsu, Böyük Qaladərəsi, Kiçik Qaladərəsi və Salatınkənddə də ermənilər məskunlaşıb. Qalan kəndlərimiz isə bomboşdur və öncə Azərbaycan əsgərinin, ardınca isə doğma sakinlərinin gəlişini gözləyirlər", - deyə kəşfiyyatçı polkovnik vurğulayıb.

***✍ Sultan Laçın***

## XƏBƏRİNİZ OLSUN...



■ Avropa İttifaqı Azərbaycana yeni səfir təyin edib. Bu barədə Avropa İttifaqının Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell qərar imzalayıb. Qərara əsasən, Peter Miçalko Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri təyin olunub. O, hazırda Aİ-nin Moldovadakı Nümayəndəliyinin rəhbəridir. Daha əvvəl Peter Miçalko Slovakiyanın Yunanıstandakı səfiri olub.

---

■ Təhsil naziri Emin Əmrullayev orta məktəblərin açılıb-açılmayacağı ilə bağlı suala cavab verib. Sosial şəbəkədə canlı yayım zamanı nazir bildirib ki, bununla bağlı danışmaq hələ tezdir. "Çalışacağıq ki, yaxın günlərdə bununla bağlı ictimaiyyətə məlumat verək" - deyə, nazir qeyd edib.

---

■ Azərbaycanlı güləşçi Pərviz Nəsibov Tokio-2020 Yay Olimpiya Oyunlarında final görüşünə çıxıb. Olimpiadada Ukrayna yığmasını təmsil edən 23 yaşlı yunan-Roma güləşçisinin 67 kq çəki dərəcəsində həlledici rəqibi iranlı Gərai Məhəmmədreza olub. Bir gün əvvəl 1/8 finaldan mübarizəyə qoşulan və 3 rəqibini məğlub edərək finala adlayan Nəsibov uğurlu çıxışını burada davam etdirə bilməyib. İranlı güləşçiyə 1:9 hesabı ilə məğlub olan həmyerlimiz gümüş mükafatla kifayətlənib və Olimpiya ikincisi olub.

---



■ Azərbaycan Ordusuna məxsus pilotsuz uçuş aparatının guya Ermənistan ərazisinə keçməsinin qarşısını alınması barədə yayılan məlumat qarşı tərəfin növbəti yalanıdır və dezinformasiya xarakteri daşıyır. Bu barədə hafta.az-a Müdafiə Nazirliyindən bildirilib. MN-in məlumatında qeyd olunub ki, həmin istiqamətdə pilotsuz uçuş aparatları havaya qaldırılmayıb və istifadə olunmayıb: "Belə məlumatlar yaymaqla Ermənistan tərəfi mövqelərimizi atəşə tutmaq kimi təxribatlarını ört-basdır etməyə və ictimaiyyəti aldatmağa çalışır. Hazırda bu istiqamətdə əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır".

---

■ Azərbaycanda Məhərrəm ayının başlayacağı tarix açıqlanıb. Qafqaz Müsəlmanları İdarəsindən bildirilib ki, avqustun 10-da Azərbaycanda Məhərrəm ayı başlayacaq. Avqustun 19-da isə Aşura günü olacaq.

---



■ Türkiyənin cənub-şərqindəki Siirt vilayətində keçirilən antiterror əməliyyatı nəticəsində PKK terror təşkilatına mənsub 2 nəfər zərərsizləşdirilib. Bu barədə ölkənin Daxili İşlər Nazirliyi bildirib. Qeyd olunub ki, bölgədə "Ərən-13" antiterror əməliyyatları davam etdirilir. Təhlükəsizliyin təmin olunmasına jandarm xüsusi qüvvələri, PUA-lar, eləcə də Hərbi Hava Qüvvətlərinə məxsus helikopterlər nəzarət edir.

---

■ Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətində (DANX) yeni təyinat olub. Anar Rzayev DANX-ın yeni rəis müavini təyin edilib. Qeyd edək ki, Anar Rzayev 1973-cü ildə Bakı şəhərində anadan olub. Xəzər Universitetinin Hüquq və sosial elmlər fakültəsini bitirib.1994-1995-ci ildə "ACTP" tələbə mübadiləsi müsabiqəsində Bakıda, sonra isə Moskva şəhərində qalib gələrək ABŞ-ın Nyu-York ştatının Sirakuz Universitetinin Yutika Kollecində təhsi alıb.

# Ölkə ictimaiyyətindən Jirinovskiyə sərt reaksiya

## Etiraz

***Sərsəm bəyanatları ilə gündəmə gələn Rusiya Liberal Demokrat Partiyasının rəhbəri Vladimir Jirinovski yenə Azərbaycanı təhdid edən bəyanatlar səsləndirib. O, bildirib ki, Cənubi Qafqaz Rusiyanın 200 illik müstəmləkəsi olub və Rusiyanın iradəsi ilə hər kəs hesablaşmalıdır. O, Rusiya sülhməramlılarına qarşı xüsusi münasibət tələb edib və daha nələr... Görünən odur ki, regionda maraqları olan güclər Cənubi Qafqazın ən güclü dövləti olan Azərbaycanı özünün müstəmləkəsindən kənarda görə bilmir və özünün siyasətinə jirinovskilərin vasitəsi ilə gücgü tutur. Bəs Azərbaycan vətəndaş cəmiyyətləri və siyasilər ölkəmizə qarşı yönələn Rusiyanın Jirinovski təbliğatına qarşı hansı reaksiyanı verdi?***



### "Jirinovski kimilər onun qüdrətinin qarşısında əriyib-gedəcək"

**■ Məsələ ilə bağlı hafta.az-a danışan Milli QHT Forumunun rəhbəri Rauf Zeyni bildirib ki, 30 illik müstəqillik dövründə Azərbaycan cəmiyyəti Rusiyanın ictimai-siyasi kəsimindən ölkəmizə qarşı müxtəlif səpkili qərəzli fikirlərin, qərəzli münasibətin şahididir. R.Zeyni bildirib ki, Azərbaycanın tarixi zəfərindən sonra Jirinovski kimilərdə başgicəllənməsi yaranıb.**

"Bunlar yenə köhnə nəğmələrini oxuyurlar. Biz zamanlar Rusiya siyasətçilərinin hansı məqamda hansı sözü dediyini, Azərbaycana qarşı hansı hərəkətlər etdiklərini unutmamışıq. Jirinovskinin son sərsəm çıxışları Rusiyada müəyyən qüvvələr tərəfindən dəstəklənir. Öz bəyanatı ilə Rusiyanın 200 illik müstəmləkəçilik siyasətini yada salan Jirinovski, əslində, Rusiyanın əsl siyasətinin mahiyyətini açıb göstərir. Zaman gəldi və sovet imperiyası, rus imperiyası dağıldı. İndi xalqların müstəqillik dövrüdür. Biz öz müstəqil dövlətimizi, ordumuzu inkişaf etdiririk. Nə gözləyirlər, yenidən gedib imperiyaya xidmət etməyimizi?! Xeyr, artıq bu mümkün deyil". R.Zeyni bu gün Jirinovski kimilərinin Azərbaycana dil uzatmasını bizim xaricdə fəaliyyət göstərən vətəndaş cəmiyyətlərinin, QHT və diasporamızın fəaliyyətinin zəifliyi ilə əlaqələndirilməsi məqamlarına da diqqət çəkib. O bildirib ki, Azərbaycana qarşı çıxış etdiyinə görə Moskvada olarkən Jirinovskinin cavabını zamanında veriblər.

"Bizim Jirinovskidən tələb etdiklərimiz o idi ki, millətə qarşı əsassız, təhqiredici fikirlər söyləməyin. Xalqı, milləti təhqir eləməyə sənin heç bir haqqın və hüququn yoxdur. Sən kimsən ki, bizim milləti təhqir edirsən?!". R.Zeyni bildirir ki, ümumilikdə cəmiyyət olaraq belə hücumlara qarşı öz ideoloji təbliğatımızı dayandırmamalı, informasiya savaşımızı gücləndirməliyik.

"Azərbaycana qarşı yönələn təzyiqləri zərərsizləşdirmək üçün zaman-zaman işlər görməli, belə çıxışlara qarşı bəyanatlarımızı verməliyik. Paşinyan gəlib Şuşada yallı gedəndə demişdim ki, vaxt gələcək biz Şuşada "Cəngi"nin sədaları altında yallı gedəcəyik. O qədər güclənməliyik ki, bizi öz təsirinə salmaq istəyənlər bizimlə hesablaşsınlar. Təbii ki, şanlı ordumuzun Şuşanı əlbəyaxa döyüşlə azad etməsini, qəhrəmanlığını, bir hərb tarixi yazmasını Jirinovski kimilər həzm edə bilmir və edə bilməyəcəklər. Azərbaycan nə qədər güclü, qüdrətli olsa, Jirinovski kimilər onun qüdrətinin qarşısında əriyib-gedəcək. Azərbaycan dövlət olaraq tarixdə qalacaq. Biz bu gün Zəngəzur uğrunda mübarizə aparırıq Jirinovski kimilərinin başına hava gəlir".

> *"Öz bəyanatı ilə Rusiyanın 200 illik müstəmləkəçilik siyasətini yada salan Jirinovski, əslində, Rusiyanın əsl siyasətinin mahiyyətini açıb göstərir*

> *Sülhməramlılara münasibətdə Azərbaycan həmişə kifayət qədər müdrik mövqe tutub*

R.Zeyni bu gün Azərbaycanın iqtisadi, siyasi, Dəmir Yumruq kimi güclənməsinin əsasında ən mühüm güc vahidi kimi milli birliyin dayandığını önə çəkib. Bildirib ki, ölkə prezidentinin apardığı siyasət dayanıqlı inkişafa söykənir. Həm iqtisadiyyat, həm ordu, gücə söykənən diplomatiya, həm də güclü vətəndaş cəmiyyətinin yaranması millət olaraq bizi uğura aparacaq.

### "Sülhməramlılarla bağlı kiminsə Azərbaycan rəhbərliyinə xəbərdarlıq etməsinə ehtiyac yoxdur"

**■ ANAP sədri Abutalıb Səmədov hafta.az-a açıqlamasında bildirir ki, Jirinovski "Cənubi Qafqazın Rusiyanın təsir zonasına daxil olduğunu" iddia edir. Partiya sədri təəssüf hissi ilə Qərb ölkələrinin də bu cür düşündüyünü qeyd edib.**

"Bu təhlükəli yanaşma Rusiyanın əlqol açmasına imkan verir. Hesab edirəm, NATO bu məsələdə qəti mövqe tutmalı və ruslara anlatmalıdır ki, nə Cənub Qafqaz, nə də Ukrayna Rusiyanın istəyi ilə oturub-durmayacaq və rusların bu ölkələrin suverenliyinə müdaxilə cəhdləri ciddi şəkildə cəzalandırılacaq.

Sülhməramlılara münasibətdə Azərbaycan həmişə kifayət qədər müdrik mövqe tutub. Xırda məsələlərə səbirlə yanaşaraq, prinsipial məqamlarda bizim tələblərimizin icra edilməsinə nail olmuşuq. O da etiraf olunmalıdır ki, bəzi insidentləri çıxsaq, həm Azərbaycan, həm də Türkiyə rəhbərliyi onların fəaliyyətini məqbul qiymətləndiriblər. Bu səbəbdən, sülhməramlılarla bağlı kiminsə Azərbaycan rəhbərliyinə xəbərdarlıq etməsinə ehtiyac yoxdur və heç kim belə bir "xəbərdarlıq" etmək "cəsarətini" göstərə bilməz. Əgər hansısa dövlətin başçısı tərəfindən belə bir cəhd olsa, ən kəskin cavabının veriləcəyinə əmin ola bilər. Bu həqiqəti həm "siyasi təlxəklər", həm də Azərbaycan daxilində olan bəzi qüvvələr anlamalıdırlar".

A.Səmədov son vaxtlar Azərbaycan haqqında çoxlu xoş bəyanatlar verən bu təlxəyi bu cür danışmağa nələrin vadar etməsi sualına da aydınlıq gətirib.

"Birinci növbədə, Azərbaycanın artan gücü və nüfuzu. İkincisi, Türkiyənin addım-addım Cənubi Qafqaza nüfuz etməsi və bu reallığın hamı tərəfindən, o cümlədən, Rusiya rəhbərliyi tərəfindən qəbul edilməsi. Nəhayət, "İslamabad Bəyannaməsi"ndən sonra, "Şuşa" və "Bakı" bəyannamələrinin imzalanması dünyada çoxlarını narahat edir və bu cür avantüristlər onların öz aralarında danışdıqlarını səsləndirərək qeyri-ciddi, marginal siyasətçi olduqlarını və qarşılarına ciddi hədəflər qoymadıqlarının nümayiş etdirirlər".

✍ Tahirə

## Mövqe

***İctimai-siyasi düşərgədə ölkədə referendumun keçirilməsinin zəruriliyi ilə bağlı müzakirələr gedir. Son vaxtlar Milli Məclisin deputatlarının fəaliyyətinə yönəlik tənqidlər məhz Məclisin təzələnməsi, referendumun keçirilməsi ilə bağlı çıxışları artırıb. Bir qisim hesab edir ki, Milli Məclis buraxılmalıdır, bir qisim isə boş qalan yerlərə seçkilərin keçirilməsi ilə yanaşı, bir deputat kimi heç bir fəaliyyəti, yaxud fəaliyyətsizliyi olan, seçicilərini narazı salan deputatların yeniləri ilə əvəzlənməli olduğunu iddia edir. Milli Məclisin deputatı Qənirə Paşayeva hafta.az-a referendumla bağlı ortaya atılan fikirlərin heç bir əsasının olmadığını deyib.***



**Qənirə Paşayeva,**
Milli Məclisin deputatı

# "Referendum çağırışları" - əsaslıdırmı?

Deputat bildirib ki, son günlər bəzi media orqanlarında və sosial şəbəkələrdə Azərbaycan Respublikası Konstitusiyasına yaxın vaxtlarda dəyişiklik edilməsi məqsədilə referendum keçiriləcəyi, habelə Milli Məclisin təkrarən buraxılacağı barədə əsassız, həqiqətə uyğun olmayan məlumatlar yayılmaqdadır.

"Bu "məlumat"lar, gözləntilər nə dövlətin, nə cəmiyyətin, nə də dövlətçiliyin dəyərini yüksək tutan vətəndaşın maraqlarına cavab vermir və bilavasitə bəlli radikal siyasi dairələrin maraqlarına xidmət edir. Belə olan halda - bir dar siyasi çevrənin, radikalların maraqlarını cəmiyyət, dövlət maraqları səviyyəsinə qaldırmaq olarmı? Əlbəttə, olmaz!".

Q.Paşayeva qeyd edib ki, referendum yaxın keçmişdə olub, cəmiyyətin müzakirələri, xalqın səsi nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasının 42 maddəsinə 29 dəyişiklik edilib.

"Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendumun üzərindən heç 5 il keçməmiş növbəti bir referendum barədə müzakirələr köklü səbəblərə əsaslanmır. Ölkədə hakimiyyət bölgüsü məlumdur, qurum və quruluşların işi günün tələbləri səviyyəsində qurulub; islahatlar dövlət başçısının kamil rəhbərliyi ilə həyata keçirilir və xalqın rəğbəti ilə qarşılanır. Yalnız Vətən müharibəsini, müharibədəki tarixi zəfərimizi vurğulamaqla dövlətimizin, dövlət orqanlarımızın Prezidentin rəhbərliyi ilə necə çalışdığını bütün dünyanın gördüyünü ifadə edə bilərik. Görünür, dünyanın gördüyünü bizim bəzi radikal çevrələr görə, idrak edə bilmir. Bir sözlə, respublikamızda təkmil və ahəngdar dövlət idarəçiliyi mövcuddur və konkret hakimiyyət bölgüsü vardır; müxtəlif dövlət orqanları, qurum və quruluşlar bir-birinin fəaliyyətini tamamlayır. 28 sentyabr 2016-cı ildəki referendumdan, 11 aprel 2018-ci ildəki Prezident və 09 fevral 2020-ci ildəki parlament seçkisindən sonrakı şəkillənmə və yeniliklərlə dövlət orqanlarının fəaliyyətinin, koordinasiyasının effektivliyi daha da artıb".



> *Bu "məlumat"lar, gözləntilər nə dövlətin, nə cəmiyyətin, nə də dövlətçiliyin dəyərini yüksək tutan vətəndaşın maraqlarına cavab vermir*

Deputat Milli Məclisin necə çalışması ilə bağlı irəli sürülən fikirlərə diqqət çəkib.

"Özüm Milli Məclisin üzvüyəm, Məclisin işinə yaxından bələdəm. Məclisin istər say tərkibi, istərsə də tərkibin formalaşdırılması üçün tətbiq olunan mövcud seçki sistemi illər ərzində sınaqdan uğurla çıxıb və günün tələblərinə uyğundur.

**Nələri xüsusi fərqləndirə bilərik?**

*- VI çağırış Milli Məclis öz fəaliyyətini dövlət başçısının daxili və xarici siyasətinə, eləcə də tövsiyələrinə uyğun, yüksək səviyyədə qurulması üçün zəruri addımlar atılıb, uğurlar əldə edilib;*

*- Milli Məclisdə islahatlarla yanaşı, Məclis özü islahatlara töhfə verən bir mühüm hakimiyyət qolu kimi özünü doğrultdu;*

*- 2020-ci ilin fevralındakı seçkilərdən sonra formalaşmış heyət, ötən müddət içində qanunvericilik fəaliyyətində yaddaqalan bir dönəm keçirib. Özəlliklə Şuşa şəhərinin Mədəniyyət paytaxtı statusu ilə bağlı cənab Prezidentin qanunvericilik təşəbbüsü ilə göndərdiyi Qanun layihəsinin komitələrdə və plenar iclaslarda müzakirələri, səsverməsinin keçirilməsi hər birimizin deputatlıq fəaliyyətimizdə xüsusi hadisə olub;*

*- Beynəlxalq əlaqələr daha da intensivləşib. O cümlədən Azərbaycan-Türkiyə-Pakistan parlamentlərarası (üçtərəfli) əməkdaşlıq formatının rəsmiləşdirilməsi ən yeni dövr tariximizin önəmli hadisəsidir;*

*- Vətəndaşlarla iş intensiv xarakter alıb, minlərlə vətəndaşın müxtəlif səpgili müraciətləri cavablandırılıb, istər məktubla bildirilmiş, istərsə bilavasitə görüşlərdə qaldırılmış problemlər öyrənilmiş, müvafiq qaydada həll olunmuşdur. Bu mənada, Məclis üzvlərinin fəallığının artırılması xüsusi qeyd olunmalıdır;*

*- Mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əlaqələr daha da sıxlaşmışdır. Özəlliklə şəhid ailələri, yaralı qazilərlə bağlı, sosial müdafiəyə ehtiyacı olan seçicilərlə bağlı məsələlər Məclisin, Məclis üzvlərinin diqqətindən əskik olmamışdır;*

*- Bəllidir ki, ötən ilin martından qlobal pandemiya ilə mübarizə içindəyik. Bu mübarizədə ölkəmiz cənab Prezidentin mükəmməl rəhbərliyi ilə ümumdünya miqyasında yadda qalan addımlar atmış, beynəlxalq humanitar təşəbbüslərlə seçilmişdir. Ölkə daxilində də mühüm addımlar atılmışdır ki, Milli Məclis istər qanunlara müvafiq əlavə və düzəlişlərin qəbulunda, istərsə, vətəndaşlarla iş sahəsində yaddaqalan işlər görmüşdür.*

Hər bir Məclis üzvü, ali dövlət rəhbərliyinin fəaliyyətini bundan sonra da özü üçün örnək hesab etməkdə haqlıdır.

44 günlük Vətən Müharibəsi ilə əlaqədar görülən işlər - müharibə dövründə və müharibədən sonra, ikitərəfli, çoxtərəfli parlamentlərarası əlaqələr, qəbul edilən müxtəlif müraciətlər, bəyanatlar, qətnamələr Məclisin məsuliyyətli fəaliyyətinə sübutdur.

Həmkarlarımın KİV-lərdə çoxsaylı məqalələri, müsahibələri, sosial mediadakı fəallıqları da bu yerdə minnətdarlıqla qeyd olunmalıdır. Bura, ötən ilin iyulunda Tovuzda, dövlət sərhədində baş vermiş döyüşlər vaxtı və döyüşlərsonrası görülən işləri də şamil edirəm.

Qalib ölkənin Milli Məclis üzvü olmaq nə qədər şərəflidirsə, bir o qədər məsuliyyətlidir. Çox şadam ki, tam əksər həmkarlarımız məhz bu şərəf və məsuliyyətin dərin fərqindədir", - deyə Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva referendumun keçirilməsi ilə bağlı iddiaların yanlış olduğunu əsaslandırıb.

Onu da qeyd edək ki, mediada artıq hökumətdəki mənbələrə istinadən heç bir referendumun keçirilməyəcəyinə dair məlumatlar yayılıb. Yeni Azərbaycan Partiyası da eyni bəyanatla çıxış edib.

✍ Tahirə Qafarlı

# Parlamentdə boş qalan yerlər



**Ələsgər Məmmədli,**
hüquqşünas



**Fəzail Ağamalı,**
Milli Məclisin deputatı

◂ əvvəli 1-ci səhifədə

Faktiki olaraq bu yaxınlarda Azərbaycan, Türkiyə, Pakistan parlamentlərinin birgə Bakı Bəyannaməsi imzalandı. O qədər uğurun qabağında mən anlamıram bu Milli Məclis niyə buraxılmalıdır?!". F.Ağamalı bu faktlara əsasən hesab edir ki, belə yanaşmalar xüsusi olaraq Azərbaycanın müzakirə sisteminə süni şəkildə gətirilmiş bir layihədir. Onun sözlərinə görə, bu Milli Məclisə qarşı süni hücumların təşkilinə və fəaliyyətinə kölgə salınmasına yönəlib. Deputat hesab edir ki, qanunla referendum keçirilə bilər. İndiki durumda referenduma hansı məsələlər qoyulacaq?

"Bu gün müzakirələrdə diqqətçəkən ən aktual məsələ mojaritar və proporsional seçkinin keçirilməsi ilə bağlıdır. Eyni zamanda, deputatların sayının artırılması və bir sıra prosedur qaydalarının dəyişməsi ilə bağlı məsələlər müzakirə oluna bilər.

Bu müzakirələr referendum keçirilməsinə heç bir əsas vermir. Gələcəkdə mən hər hansı referendumun keçirilməsini istisna etmirəm, bu mümkündür. İndiki durumda buna ehtiyac yoxdur. Ona görə də hesab edirəm ki, bu məsələlər Azərbaycana qarşı heç də xoş olmayan layihənin tərkib hissəsidir". F.Ağamalı eyni zamanda Milli Məclisdə olub, lakin cəmiyyətə çıxmaq istəməyən, jurnalistlərin suallarına cavab verə bilməyən və yaxud vermək istəməyən deputatlarla bağlı məsələyə də aydınlıq gətirib.

O, belə deputatları qınadığını və belə halları pislədiyini deyib: "Milli Məclis özünü qanun pozuntusu törədənlərdən təmizləməlidir. Kimsə mandat əldə edib, "burda mənəm, Bağdadda kor xəlifə" düşüncəsi ilə fəaliyyət göstərirsə, çox böyük səhvə yol verir. Millət vəkili millətə, dövlətə xidmət eləməlidir və bunu özünə şərəf bilməlidir".

Məsələ ilə bağlı MSK-ya da müraciət etdik. Mətbuat xidmətinin katibi Şahin Əsədli "Bir azdan danışarıq", - dedi, amma nədənsə sualımıza cavab gəlmədi...

✍ Tahirə Qafarlı

# Daşkəsən dəmir filizi yatağında son durum

## Araşdırma

***Azərbaycanda sənayenin digər sahələri ilə yanaşı, qara metallurgiya sənayesinin inkişafı ilə bağlı münbit şərait var. Bu gün ölkəmizdə qeyri-neft sənayesinin inkişafı strategiyası çərçivəsində metallurgiya sənayesinin kompleks inkişafı üçün də səylər göstərilir. Belə ki, "Daşkəsən Filizsaflaşdırma" ASC uzunmüddətli fasilədən sonra yenidən əsaslı təmir olunaraq Azərbaycan Respublikasının Prezidentinin iştirakı ilə 31 oktyabr 2006-cı ildə obyekt yenidən işə salınıb. Azərbaycan Respublikası Prezidentinin 23 aprel 2013-cü il tarixli Sərəncamı ilə Azərbaycan Polad İstehsalı Kompleksi yaradılıb.***

"

*Açığı bu istiqamətdə indiyədək yaranan mürəkkəb kombinasiyanın səbəbi mənə məlum deyil*

Sərəncama əsasən səhmləri dövlətə məxsus olan "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Polad İstehsalı Kompleksinə daxil edilib və onun dövlətə məxsus səhmlərinin saxlanılması və idarə olunması hüquqları Azərbaycan Polad İstehsalı Kompleksinə verilib. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan Respublikasının Metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 13 iyul 2016-cı il tarixli Sərəncamı qüvvəyə minib. Həmin Sərəncama əsasən, Azərbaycan Polad İstehsalı Kompleksinə daxil edilmiş "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyəti özəlləşdirməyə açıq elan edilib və bu məqsədlə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilib. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin səhmlərinin investisiya müsabiqə vasitəsilə özəlləşdirilməsi bu günə kimi başa çatdırılmayıb.



### Yatağın gələcək taleyi bu ilin sentyabrında məlum ola bilər

Ötən il isə ölkə Prezidentinin6 avqust 2020-ci il tarixli Sərəncamı ilə Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə bağlı tədbirlər haqqında sənəd imzalanıb. Həmin sənədə əsasən, Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə əlaqədar ilkin qiymətləndirmə sənədinin hazırlanması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.64-cü bəndində göstərilmiş məbləğdən "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinə ilkin olaraq 3 milyon manat ayrılması nəzərdə tutulub.



**Rəşad Həsənov,**
iqtisadçı-ekspert

Qeyd edək ki, Daşkəsən rayonunda yerləşən, regionun ən nəhəng dəmir filizi yataqları kompleksi olan "Daşkəsən" dəmir filizi sahəsində hasilat işlərinə SSRİ dönəmində başlanılıb. Bu məqsədlə 1945-ci ildə "Daşkəsən Filiz İdarəsi" yaradılıb. "Daşkəsən" dəmir filizi sahəsi 1954-cü ildən 1994-cü ilə qədər intensiv olaraq istismar edilib. Bu müddət ərzində sahədən çıxarılmış dəmir filizi ehtiyatlarının miqdarı 92 milyon ton təşkil edib. 1994-cü ildən 1997-ci ilədək yataqda istismar işləri müəyyən fasilələrlə qismən aparılıb. "Daşkəsən" dəmir filizi sahəsində 6 yataq mövcuddur: "Şimal-şərq", "Şimal-qərb", "Cənub-şərq", "Cənub-qərb", "Dəmirov", "Dardərə".

Bəs, görəsən, hazırda Daşkəsən filiz yataqlarında son durum nədən ibarətdir? Bu yataqların taleyi necə olacaq? Yataqlar təkrar özəlləşdirməyə açılacaqmı?

■ **Məsələ ilə bağlı "AzərGold" QSC-dən hafta.az-a bildirilib ki, Azərbaycan Respublikasının Prezidentinin 6 avqust 2020-ci il tarixli 2202 nömrəli Sərəncamı ilə Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə əlaqədar ilkin qiymətləndirmə sənədinin hazırlanması Cəmiyyətə həvalə edilib:** "Möhtərəm Cənab Prezidentin göstərdiyi yüksək etimadın nəticəsi olaraq, 1 sentyabr 2020-ci il tarixli Sərəncamla "AzerGold"un fəaliyyət sahəsi genişləndirilib. Ölkə ərazisində qara metal filizi yataqlarının işlənilməsi və idarə olunması da Cəmiyyətə həvalə olunub.Sərəncamdan irəli gələn tapşırıqların icrası, dəmir filizi yataqları üzrə fəaliyyətin təşkili ilə əlaqədar bütün səhmləri Cəmiyyətə məxsus olan ilk törəmə şirkət - "Daşkəsən Dəmir Filiz" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlayıb. Hazırda Daşkəsəndə regionun ən nəhəng dəmir filizi yataqları kompleksinin gələcəkdə işlənməsində dair ilkin qiymətləndirmə sənədinin hazırlanması çərçivəsində fəal iş aparılır. Hazırda ləğvetmə prosesində olan "Daşkəsən Filizsaflaşdırma" ASC-nin aktivlərinin satın alınması ilə bağlı müqavilənin bağlanılması istiqamətində zəruri tədbirlər icra edilir. Eyni zamanda, ilkin qiymətləndirmə sənədinin hazırlanması çərçivəsində çöl-tədqiqat işləri, laborator təhlillər aparılıb, arxiv geoloji məlumatlar rəqəmsallaşdırılıb. MMC-nin iştirakı ilə beynəlxalq nüfuzlu məsləhətçi şirkət tərəfindən hazırlanan ilkin qiymətləndirmə sənədinin 2021-ci ilin sentyabr ayında təqdim edilməsi nəzərdə tutulub. Bu layihənin başlıca hədəfi qısa müddət ərzində dəmir filiz yataqların hasilata verilməsi və metal qırıntıları əvəzləyən, həmçinin daha keyfiyyətli metallurji məhsulların istehsalı üçün xammala tələbin təmin edilməsidir.

Bu məqsədlə fəaliyyətin 2 mərhələ üzrə təşkil edilməsi planlaşdırılır. Birinci mərhələdə yüksək dəmir tərkibli filiz konsentratının, ikinci mərhələ üzrə isə birbaşa reduksiya edilmiş dəmirin ( və ya isti briketləşdirilmiş dəmirin) istehsalı nəzərdə tutulub. Hazırda bu istiqamətdə iqtisadi araşdırmalar və tədbirlər planı hazırlanır. İlkin olaraq MMC-yə 150 nəfər işçi cəlb edilib".

Qurumdan həmçinin vurğulanıb ki, "AzerGold" QSC-nin beynəlxalq məsləhətçi şirkəti tərəfindən hazırlanan Strateji Yol Xəritəsi çərçivəsində qarşıdakı illər ərzində Daşkəsən dəmir filizi yataqlarının istismara verilməsi və dəmir istehsalı zənciri üzrə 2035-ci ilədək əsas makroiqtisadi tövhələr də hesablanılıb. Əsas makroiqtisadi töhfələr aşağıdakı kimidir:

**Məcmu ÜDM: 6.8 mlrd AZN**

**Gəlir: 4.9 mlrd AZN**

**Vergilər: 556 mln AZN**

Daimi iş yerləri: 1650 nəfər

Birbaşa və dolayı iş yerlərinin sayı (multiplikator faktoru nəzərə alınmaqla): 3300 nəfər

İnfrastruktur: dəmir yolu, elektrik xətti və s. Qurumda hesab edirlər ki, "Daşkəsən" dəmir filizi yataqlarının istismara verilməsi daimi iş yerlərinin açılmasına, dəmir məhsullarının ixrac potensialının artımına, xammaldan asıllığın azalmasına və nəticədə ölkənin ümumi daxili məhsulun artımına, yeni iş yerlərinin açılmasına töhfə verəcək.Yatağın gələcək taleyi isə bu ilin sentyabrında ilkin qiymətləndirmə sənədinin hökümətə təqdim olunmasından sonra məlum olacaq.

### Ekspert rəyi

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı-ekspert Rəşad Həsənov hesab edir ki, yatağın özəlləşdirilməsi daha səmərəli ola bilər:**

"Açığı bu istiqamətdə indiyədək yaranan mürəkkəb kombinasiyanın səbəbi mənə məlum deyil. Amma söhbət yataqda gedirsə, özəlləşdirmə daha faydalıdır. Bir sıra sahələr var ki, dövlətin onlardan geri çəkilməsi həm şəffaflığa, həm hesabatlığa, həm büdcənin gəlirlərinin artmasına, dövlətin maliyyə yükünün azalmasına, idarəetmə, korrupsiya risklərinin aradan qalxmasına, son nəticədə həmin müəssisələrin rəqabət qabiliyyətinin yüksəlməsi, onlarda özəl təşəbbüskarlığın formalaşması, o müəssisələrin Azərbaycan iqtisadiyyatına qazandırılması zərurəti var".

✍ *Sevinc*



# Mediamız Ermənistan xüsusi xidmət orqanları üçün mənbə olmamalıdır

## Aktual

***Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusundan biri kimi 44 günlük Vətən müharibəsində tarix yazdı. Ali baş komandan İlham Əliyevin də bəyan etdiyi kimi, Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində bir dəfə də olsun geriyə addım atmadı.***

Halbuki müharibələrdə hücumlar, geriyə dğönmələr, manevrlər olur. Amma Azərbaycan Ordusu 30 illik işğala son qoymaq naminə bütün imkanlarını səfərbər etmişdi.

Bu fikirləri hafta.az-a millət vəkili Könü Nurullayeva deyib. Onun sözlərinə görə, düşmən bu müddətdə bir dəfə də olsun, uğurlu əməliyat apara bilmədi. Bütün beynəlxalq hərbi ekspertlər Azərbaycan Ordusunun yüksək səviyyəli, mütəşəkkil komandanlığını nümunə kimi göstərdi:

"Düşmənin hədəflərini sərrast dəqiqliklə məhv edən ordunun əsl gücü döyüş meydanında bəlli oldu. Hərbçilərimizin peşəkarlığı, yükəsk səviyyəli vətənpərvərlik hissi ilə yanaşı, cəmiyyətin ordunun yanında olması Silahlı Qüvvələrimizə əlavə güc verirdi. Biz hələ ötən ilin yayında-Tovuz döyüşləri zamanı cəmiyyətin Ordumuza dəstəyinin şahidi olduq. Cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, hər kəs Azərbaycan əsgərinin yanında idi, hər kəs ordumuzun ətrafında sıx birləşmişdi.

Biz həm də əzmkarlığımızla düşmənə qalib gəldik. Orduda təşkilatlanma, xalq-ordu birliyi postmüharibə dövründə də davam edir. Azərbaycan öz sərhədlərində daha da möhkəmlənir, ərazilərimizin təhlükəsizliyinin təmin olunması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Yeni mərhələdə də təbii ki, həm ordumuzun, həm də cəmiyyətin qarşısında yeni vəzifələr durur. İndi proseslərə daha həssas yanaşmalı, xüsusi ilə informasiya cəbhəsində müharibə dövründə olduğu kimi eyni həssasiyyəti qoruyub saxlamalıyıq. Son günlər bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə Azərbaycan Ordusunda ştat dəyişikliyi, şəxsi heyətin rotasiyası, kadr islahatları və Orduya aid digər məlumatların təhrif olunmuş şəkildə yayılması azuolunan hal deyil.

Müdafiə Nazirliyinin sonuncu bəyanatında da qeyd olunduğu kimi, şəxsi heyətin, xüsusilə yuxarı çinli zabit heyətinin vəzifə yerdəyişməsi kimi məlumatlar xidməti xarakter daşıyır və hərbi-dövlət sirri sayıla bilər. Qalib Ordu haqda bu cür məlumatların yayılması və bu istiqamətdə müzakirələrin təşkil olunması yolverilməzdir. Sosial şəbəkələrdə və ya mediada rəsmi mənbələrlə dəqiqləşdirilmədən yayılan informasiyalardan ölkəmizə qarşı təhlükəli məqsədlər üçün istifadə olunduğunun dəfələrlə şahidi olmuşuq. Burada artıq hərbçilərimizin həyati təhlükəsizliyi məsələsi ortaya çıxır. Azərbaycan mediası Ermənistan xüsusi xidmət orqanlarının dezinformasiya siyasəti üçün mənbə olmamalıdır. Vətəndaş məsuliyyəti burada əsas şərtdir. Biz müharibə dövründə olduğu kimi, postmüharibə dövründə də ordumuzun yanında olmalı, KİV-lərdə və ya sosial şəbəkələrdə məsuliyyətsiz informasiyaların yayılmasına mane olmalıyıq".

"

*Düşmənin hədəflərini sərrast dəqiqliklə məhv edən ordunun əsl gücü döyüş meydanında bəlli oldu*

✍ *Azad*



■ **Təhsil Nazirliyinin keçirdiyi müəllimlərin işə qəbulu imtahanlarının test nəticələrinə görə, kimya, rus dili, musiqi, təsviri incəsənət, Azərbaycan dili (rus bölməsi), coğrafiya, informatika, fiziki tərbiyə, ingilis dili fənləri üzrə elan etdiyi vakant yerlər tam dolmayıb.**

Bu barədə açıqlama verən təhsil naziri Emin Əmrullayev bəzi fənlər üzrə namizədlərin sayı az olub. "Təhsil Nazirliyinin yanaşması ondan ibarətdir ki, namizəd 30 baldan yuxarı yığıbsa, müəllim kimi işləyə bilər. Ondan az olanları seçimə buraxmırıq. Düşünmürəm ki, testlər çətin olub. Həmin şəxslərə hazırlaşıb gələn il imtahanda iştirak etməyi tövsiyə edirik", - deyə nazir qeyd edib. Dərs saatlarını azaltmaqla daha çox müəllimi işə cəlb etməyi düzgün hesab etmirik.




■ **İyul ayı üzrə xaricdə təhsil alanların diplomlarının tanınması barədə statistika açıqlanıb. Təhsildə Keyfiyyət Təminatı Agentliyindən hafta.az-a verilən məlumata görə, ötən ay 257 müraciətçinin 219-u barədə müsbət qərar veriləərək müvafiq şəhadətnamələr təqdim edilib, 38 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.**

Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 13, tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 12, təhsil ölkəsində tələb olunan minimal müddətin ödənilməməsi, həm də tədris dilinin qənaətbəxş olmaması səbəbi ilə 7, digər səbəblər üzrə 6 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.



■ **4 avqust 2021-ci il tarixində Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Yaponiyanın xarici işlər naziri Motegi Toshimitsu arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən (XİN) hafta.az-a verilən məlumata görə, nazirlər ikitərəfli əməkdaşlıq əlaqələrinin cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə ediblər. Nazir Ceyhun Bayramov, hazırkı çətin vəziyyətdə "Tokio-2020" Yay Olimpiya Oyunlarının yüksək səviyyədə təşkili münasibətilə yapon həmkarını təbrik edib. Tərəflər, növbəti il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasını vurğulayaraq, bu xüsusda fikir mübadiləsi aparıblar.



■ **Vətən müharibəsində ağır yaralanan daha 3 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib. Bu barədə hafta.az-a fonddan məlumat verilib.**

Məlumata görə, Türkiyəyə göndərilən qazilər Atakişiyev Nəriman Qələndər oğlu, Ağayev Mübariz Şahab oğlu, Muradov Tanırverdi Mədəd oğludur. Qeyd olunub ki, "YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək: "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir".



■ **"Fitch" reytinq agentliyi Azərbaycanda valyuta ehtiyatlarının əhəmiyyətli dərəcədə artımını proqnozlaşdırır. Bunu Trend-ə agentliyin suveren istiqrazlar şöbəsinin baş direktoru Pol Qembl deyib.**

Onun sözlərinə görə, "Fitch"in may ayında Azərbaycanın reytinqi üzrə "BB+" proqnozunu "mənfi"dən "stabil"ə yüksəltməsi ölkənin suveren balansının pandemiyaya və ötənilki neft qiymətlərinin azalmasına dayanıqlığını əks etdirir: "2020-ci ilin sonunda xarici valyutada suveren aktivlərin həcmi 49,9 milyard dollar təşkil edib ki, bu əvvəlki illə müqayisədə daha yüksəkdir. Xarici maliyyə isə daha yüksək neft qiymətləri ilə dəstəklənir. İyun ayında "Fitch" neft qiymətlərinin bu il 63 dollar/barel, 2022-ci ildə 55 dollar/barel olacağını proqnozlaşdırıb.



■ **Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 996 yeni yoluxma faktı qeydə alınıb, 202 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 346 878 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 333 694 nəfər müalicə olunaraq sağalıb, 5 039 nəfər vəfat edib, aktiv xəstə sayı 8 145 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 465, ötən müddət ərzində isə ümumilikdə 4 070 700 test aparılıb.

## Şikayətim var

# Yaşayış evinin önündəki zibil qutuları narazılıq yaradtı

***Xətai rayonu "NZS" qəsəbəsində, Mingəçevir küçəsi, ev 20/40 ünvanında yaşayan Zülfüqar Əhmədov İcra Hakimiyyətinin fəaliyyətindən narazıdır. Belə ki, onun yaşadığı evin düz qarşısına zibil yeşikləri qoyulub. İndi vətəndaş hər səhər pəncərələrini məişət tullantılarının qoxusuna açır. Şikayətçi Zül-füqar Əhmədov hafta.az-a açıqlamasında bildirdi ki, 3 il yarımdır həmin evi alıb, zibil qabları da əvvəldən orada olub. Daha sonra dəfələrlə aidiyyəti qurumlara məsələ ilə bağlı müraciətlər etsə də, şikayəti cavabsız qalıb:***



"Evdə xəstə anam var. Bu da daha çox ona narahatlıq verir. Bir neçə dəfə problemimi Bakı Şəhər İcra Hakimiyyətinə, Xətai Rayon İcra Hakimiyyətinə və Mənzil Kommunal Xidmətinə bildirmişəm, ancaq 3 ildən çoxdur, şikayətimə baxılmır". Daha sonra problemlə bağlı Xətai Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq.

■**Qurumun mətbuat xidmətindən saytımıza bildirilib ki, 10 ildən artıqdır zibil qutuları həmin yerdədir. Şikayət edən vətəndaş da mənzilə köçəndə bunu görür və bilirdi:** "İndiki zibil qutuları yüksəksəviyyəli konteynerlərdir. Səliqə və sahmanı da öz yerindədir... Evin önündə 4 konteyner var, mütəmadi olaraq zibil daşınır. Şikayətçinin göndərdiyi şəkillər isə köhnədir. Orada zibil qutularının sayı 3 görünür".

O ki qaldı konteynerlərin yerini dəyişdirmək məsələsinə, qurum rəsmisinin sözlərinə görə bu, çox mürəkkəb məsələdir:

"Qutu uzun illərdən bəri həmin yerdə yerləşir. Onu başqa yerə apardıqda digər qonşular narazılıq edəcəklər ki, "Niyə mənim evimin önünə qoydunuz?". Təxminən, 10 ildən artıqdır, qutular elə oradadır. Qoy vətəndaş getsin Mənzil Təsərrüfatı Birliyinə, yaxud Mənzil Təsərrüfatı Departamentinə, rəsmi şəkildə müraciət edib cavab alsın. Daha sonra aydın olsun ki, yerlərini dəyişdirmək olar, ya olmaz. Rəsmi müraciət edərək dəyişdirilməsini tələb etsin. Dünyanın hər yerində zibil konteyneri küçənin kənarına qoyulur".




Görünən odur ki, bu xəmir hələ çox su aparacaq. Ümid edirik, tərəflər tezliklə razılığa gələcək və məsələ öz həllini tapacaq.

✍ **Banu**

# Vəfat edən qaziyə şəhid statusu verilmir

***Bir neçə gün öncə Azərbaycan Ordusunun baş leytenantı, Vətən müharibəsi qazisi, 1980-ci il təvəllüdlü Cahangirli Habil Həzər oğlu Ankarada, müalicə aldığı Hacettepe Universiteti Xəstəxanasında dünyasını dəyişib. İndi mərhum baş leytenantın ailə və yaxınları şəhid statusunun verilməsi ilə bağlı bir sıra problemlərlə üzləşiblər.***

Məsələ ilə bağlı hafta.az-a danışan **Habil Cahangirlinin qardaşı Ramil Cahangirli** bildirir ki, sözügedən vəziyyətlə əlaqədar, demək olar ki, aidiyyəti üzrə bütün qurumlara müraciət edib, onlar isə işi bir-birinin üzərinə atır:

"Elə indi Xəzər Rayon Hərbi Komissarlığından çıxıram. Mənə deyildi ki, "Zabitlərlə bağlı məsələyə biz baxmırıq. Buna görə Müdafiə Nazirliyinə müraciət edin". Nazirlikdən isə kimə, hara müraciət edəcəyimi bildirmədilər".

Maraqlıdır, görəsən, daha əvvəl belə bir vəziyyət yaşanmayıb? Bəs onda hansı addımlar atılmışdı?

Meydana gələn bu sorğu-suala aydınlıq gətirmək üçün Müdafiə Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Polkovnik Vaqif Dərgahlı söylədi ki, məsələ ilə bağlı bu suallara Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti cavab verir.



■**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən sorğumuza cavab isə belə oldu:** "Bildiririk ki, şəhid və şəhid ailəsi statusunun verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli 10 saylı Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"na əsasən həyata keçirilir. Bu Qaydanın 4.1-ci bəndinin üçüncü abzasına əsasən, şəhid ailəsi statusu gizir və zabit heyəti üçün Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin, Dövlət Sərhəd Xidmətinin kadrlar idarəsi, digər hərbi qulluqçulara hərbi qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq olaraq yerli idarə, şöbə və bölmələri, mülki vətəndaşlara isə rayon (şəhər) icra hakimiyyəti orqanlarının verdiyi arayışlarla təsdiq olunur.

Odur ki, Vətən müharibəsi zamanı xəsarət almış Türkiyə Respublikasında müalicədə olarkən vəfat etmiş, mərhum baş leytenant Cahangirli Habil Həzər oğlunun Müdafiə Nazirliyinin müvafiq hərbi hissəsində zabit kimi xidmət keçdiyini nəzərə alaraq, qeyd olunan məsələ ilə əlaqədar aidiyyəti üzrə müraciət olunması məqsədəmüvafiqdir".

Görünən odur ki, qələbəmizin bir parçası olan qazi baş leytenant Habil Cahangirlinin şəhid statusu alması müəmması hələ davam edəcək. İndiki vəziyyətdə ailənin ən böyük təsəllisi Şəhid statusunun bərqərar edilməsi olardı.

✍ **Banu**

# Türkiyədə meşə yanğınları

## Təxribat

***"İsti havada bir qığılcımla belə qısa vaxt ərzində böyük bir ərazini yandırmaq olur. Bununla yanaşı Türkiyədə baş verən yanğınlar terrordur və qardaş ölkənin Cənubi Qafqazdakı gücünün zəifləməsinə yönəldilib". Bunu hafta.az-a siyasi şərhçi Əhəd Məmmədli qardaş Türkiyəni bürüyən yanğınların səbəblərini şərh edərkən bildirib.***



### Ankaranın bölgədə güclənməsini istəmirlər

Onun sözlərinə görə, PKK-nın meşə yanğınlarını törədən qrupu artıq məlum yanğını boynuna götürüb. Bundan sonra İtaliya rəsmi dairəsi də öz ərazilərində baş verən yanğınlarla bağlı açıqlamalar verərək hadisəni mafiya ilə əlaqələndirib. Məsələyə Azərbaycanda baş verən proseslər aspektindən yanaşan Ə.Məmmədli hələ II Qarabağ müharibəsi başlamazdan əvvəl Türkiyənin Azərbaycanda keçirdiyi hərbi təlimlərdən sonra ölkəmizdə baş verən təxribatlara diqqət çəkib. O, Türkiyə ilə Azərbaycan əməkdaşlığı genişləndikcə müəyyən qüvvələrin ölkədə vəziyyəti gərginləşdirməyə çalışdığı bir fakt olaraq ortaya qoyuldu. "Hərbi təlimlərdən sonra Mingəçevirdə işıq söndürüldü, Gəncədə icra hakiminə qarşı silahlı hücum oldu.

Bir sözlə, hər dəfə Türkiyə ilə Azərbaycan arasında nəsə baş verəndə ortaya problemlər çıxarılır. Şuşa Bəyannaməsindən sonra Türkiyə ABŞ-a şərtlər qoydu ki, yalnız bir şərtlərlə Əfqanıstanda qala bilər. Bütün bunlardan sonra meşə yanğınları oldu və Türkiyəni fakt qarşısında qoymaq istədilər. Əlbəttə ki, maraqlı qüvvələr var ki, Türkiyənin başını qarışdırıb Cənubi Qafqazdan, Azərbaycandan çəkindirmək istəyirlər. Türkiyənin Şimali Afrikada iki ən yaxın müttəfiqləri Liviya və Tunis idi. Tunis də AK Partiyaya ideoloji baxımdan yaxın olan Naxta partiyasına qarşı hərbi qiyam baş verdi və oyuncaq prezident parlamenti buraxdı. Bundan sonra Liviya qaldı və orada da vəziyyət hər an dəyişə bilər. Türkiyənin Cənubi Qafqaza yaxınlaşmasını ifadə edən geosiyasi mənzərənin fonunda yanğınlar baş verir, turistlər ölkədən evakuasiya edilir. Bilirik ki, Türkiyə iqtisadiyyatının inkişafında əsas yerlərdən birini turizm tutur. Liviyadan sonra bu yanğınların baş verməsi Türkiyəyə ciddi zərbə vurdu. Biz bu yanğınları təsadüfi saymırıq. Hesab edirik, Türkiyə regionda apardığı siyasətlə əlaqədar olaraq bölgədə təzyiqlərlə üz-üzə dayanıb. Regionda marağı olan güclər Türkiyəni hədəflərindən geri çəkmək istəyir. Bunu edənlər baş verələrin bədəlini Türkiyəyə ödəyəcəklər".

Türkiyə yanğınlarında ABŞ-ın rolunun olmasına gəlincə, Ə.Məmmədli bunu istisna etməyib. Onun sözlərinə görə, məhz ABŞ Şimali Suriyada PKK -ya neçə milyon dəstək verdi. Bu artıq faktdır.

"Böyük dövlətlərin regionlarda maraqları var və bu maraqlara uyğun da müttəfiqləri dəyişə bilər. Məsələn, Cənubi Qafqazda, Yaxın Şərqdə Türkiyənin görünməz müttəfiqləri Çin və Böyük Britaniyadır. Amma artıq Əfqanıstanda Türkiyə Çinlə üz-üzə gələ bilər. Müxtəlif konfiqurasiyada fərqli addımlar atırsan. Son illərdə Türkiyə böyük güclərin bir-birinə qarşı çıxmalarından istifadə edib, öz maraqlarını irəli sürür və böyüməkdə davam edir".

✍ *Tahirə Qafarlı*

## Təhlükə

***Son vaxtlar sosial şəbəkələr üzərindən, xüsusən də "Tik-tok" vasitəsilə narkotik qəbulunu təbliğ edənlərin videolarına rast gəlinir. Hüquq-mühafizə orqanları isə belə şəxslərə qarşı geniş tədbirlər həyata keçirir. Bəs görəsən, gənclər narkotik təbliğatına niyə bu qədər meyillidir? Bəziləri heç özləri istifadəçi deyil. Bir də ki, belə məsələlərin qarşısını nə cür almaq olar? Hafta.az məsələnin müzakirəsini fərqli aspektlərdən yanaşaraq apardı.***

# "Tik-tok"da narkotik təbliği




### Cəzalar sərtləşdirilməlidir...

■ **İlk olaraq isə mövzunun psixoloji tərəflərinə aydınlıq gətirən psixoloq Aynur İsmayıl bildirdi ki, gənclərin bu işə maraq göstərməsi, yeniyetməlik dövründə özünü göstərmə, diqqət cəlb etmə, "Mən hər şeyi bacararam" hissləri ilə başlayır.**

"Əksər hallarda bu, uşaqlıqdan gələn travmalar ilə də əlaqədar olur. Narkotikdən istifadə etmək ani beyin dumanlanmasıdır. Bu vəziyyətdə insanlar özlərini daha güclü hiss edirlər. Olduqları pis, qaranlıq mühitdən ani uzaqlaşma fikri gəlir ki, bu da narkomaniyanın gənclər arasında yayılması ilə nəticələnir. Onlar əsasən müəyyən depressiv vaxtlarda çıxış yolunu belə maddələrdə görürlər".

Psixoloq yeniyetmələri və gəncləri bu bəladan uzaq tutmaq üçün ən böyük yükün valideynlərin üzərinə düşdüyünü söylədi: "Yeniyetmə və gənclərin valideynləri çox vaxt uşaqları ilə danışmaqdan çəkinirlər, belə məsələlərə tənqidi yanaşırlar. Gənclərin həyatını öz gəncllikləri ilə müqayisə edirlər. Bu da bir növ övladları valideyndən uzaqlaşdırır. Yaxşı olardı ki, ilk növbədə ailədə övlad ilə valideynlər arasında dostluq münasibətləri formalaşsın. Belə olan halda, gənclər hər bir mövzuda valideynlərinə güvənər. Narkomaniya ilə mübarizə zamanı ən böyük iş valideynlərin üzərinə düşür".

■ **"Sosioloq Rəfiqə Əzimovanın fikrincə, bu gün açıq şəkildə onlayn olaraq narkotik maddə satılması onu göstərir ki, məsələ artıq təbliğatı belə keçib. Kimlərsə ölkəmizdə gənclər arasında narkomaniya bəlasını yaymağı qarşısına məqsəd qoyublar:**

"Bəlkə də hansısa xarici qüvvə bu işin arxasında dayanıb. Şükür ki, indi dövlət səviyyəsində narkomaniyaya qarşı yaxşı tədbirlər həyata keçirilir. Təbliğatçıların həbs edilməsini müsbət hal kimi qiymətləndirmək lazımdır. İstifadəçilərin və təbliğatçıların şəkilləri ictimaiyyətə göstərilir. Bu ictimai qınaq baxımdan müsbət haldır. Hesab edirəm, bundan sonra daha ciddi addımlar atılacaq. Şəhərlər, rayon və kəndlərdə ailələr arasında maarifləndirmə aparılmalıdır. Yerlərdə bu işi həyata keçirəcək mərkəzlər açılmalıdır. Düzgün maarifləndirmə işi ilə narkomaniyanın qismən də olsun qarşısını ala bilərik. Öncə ailə, ardınca isə məktəblərdə uşaqlar nəzarətdə saxlanılmalı və doğru yönləndirilməlidir. İndi narkotik istifadəçisi olan gənclərin əksəriyyəti riskli ailələrin övladlarıdır. Riskli ailələr odur ki, ana və ata övlada fikir vermir, onlara biganə yanaşırlar".

### İndi isə keçid alaq problemin hüquqi tərəflərinə...

■ **Vəkil Turan Abdullazadənin sözlərinə görə, qanunvericilikdə iki cür təbliğat - "dini təbliğat" və "dövlət dilinə qarşı təbliğat" məsuliyyətə cəlb etməyə səbəb olur.**

Narkotikanı təbliğ etməklə bağlı isə qanunvericilikdə konkret olaraq hər hansı bir məsuliyyət nəzərdə tutulmur. Bu o demək deyildir ki, sosial şəbəkələrdə kütləvi şəkildə narkotikanı təbliğ edən şəxslər barəsində qanuni ölçü götürülmür: "Qanunvericiliyimizdə bəzi normalar var ki, həmin normalar narkotik vasitələrin və psixotrop maddələrin təbliğatını aparanlara, qanunsuz olaraq narkotik vasitələri və psixotrop maddələri istehlak edən, satış məqsədilə əldə edən, saxlayan, daşıyan və ya göndərən şəxslərə qarşı mübarizədə effektivdir. Bundan başqa, ölkəmizdə Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsi fəaliyyət göstərir. Bu idarə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində idarəçiliyi, əməliyyat-axtarış fəaliyyətini və təhqiqatı həyata keçirən, bu istiqamətdə kriminogen durumun təhlilinə əsasən müvafiq regional qurumların, ərazi və nəqliyyatda polis orqanlarındakı aidiyyəti strukturların fəaliyyətini təşkil edən və əlaqələndirən struktur qurumdur. Həmin idarə sosial şəbəkələrdə narkotik vasitələri və psixotrop maddələri təbliğ edən hər hansı bir şəxsi və ya şəxsləri aşkar edərsə, bu barədə dərhal tədbirlər görür. Təcrübə onu göstərir ki, adətən narkotik vasitələri sosial şəbəkələrdə təbliğ edən şəxslərin özü də narkotik vasitə istifadəçisi olur və ya onun satışını bu və ya digər formada həyata keçirir. Bu səbəbdən dolayı narkotik vasitələri təbliğ edən şəxslərin əməllərində cinayət tərkibi müəyyən olunarsa, hüquq mühafizə orqanları tərəfindən onlar mütləq qaydada cinayət məsuliyyətinə cəlb olunurlar".

Cəzalara gəldikdə isə vəkil bildirir ki, bu adətən 300-2000 manat arası cərimə, bəzi hallarda isə həbslə nəticələnir:

"İnzibati Xətalar Məcəlləsinin 428-ci maddəsinə reklamı qadağan olunmuş məhsulların, texnikanın, xidmətlərin reklamına, habelə reklam yayımının qanunla müəyyənləşdirilmiş qayda və tələblərinə əməl edilməməsinə görə - vəzifəli şəxslər 3 yüz manatdan 5 yüz manatadək məbləğdə, hüquqi şəxslər 1 min manatdan 2 min manatadək məbləğdə cərimə edilir. Azərbaycan Resublikası İnzibati Xətalar Məcəlləsinin 206-cı maddəsinə əsasən qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakına, satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə, 3 yüz manatdan 4 yüz manatadək məbləğdə cərimə edilir, işin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə iki ayadək müddətə inzibati həbs tətbiq edilir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.1-ci maddəsinə əsasən satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma - 1 ildən 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 3 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmin Məcəllənin 234.2. maddəsinə əsasən satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma-3 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

✍ **Banu**

> *Yeniyetmə və gənclərin valideynləri çox vaxt uşaqları ilə danışmaqdan çəkinirlər, belə məsələlərə tənqidi yanaşırlar*

> *Düzgün maarifləndirmə işi ilə narkomaniyanın qismən də olsun qarşısını ala bilərik*

> *Narkotikanı təbliğ etməklə bağlı isə qanunvericilikdə konkret olaraq hər hansı bir məsuliyyət nəzərdə tutulmur*

# Gələn həftədən şagirdlərin elektron yerdəyişməsinə başlanılır

## Təhsil

***Son illər təhsil sahəsində aparılan xidmətlərin əksəriyyəti elektronlaşdırılıb. Məqsəd isə olduqca sadədir: vətəndaş məmnunluğunun artırılması və bu sahədə yaranan neqativ halların minimuma endirilməsi. Yeri gəlmişkən, bu ilin iyunun 10-dan etibarən şagirdlərin elektron yerdəyişməsi üzrə müvəqqəti olaraq dayandırılan sorğuların qəbulu yenidən aktivləşdiriləcək. Belə ki, avqustun 9-u saat 11:00-dan etibarən məktəbəhazırlıq qrupları, I və X siniflər istisna olmaqla, digər siniflərdə təhsil alan şagirdlər üçün elektron yerdəyişmə prosesinə başlanılır.***



**Naxçıvanda təhsil alan məktəblilərin də ölkə daxilində yerdəyişməsi elektron qaydada aparılacaq**

Şagirdlərin yerdəyişməsi prosesi www.sy.edu.az portalı vasitəsilə həyata keçirilir. Şagird yerdəyişməsinin elektronlaşdırılması bu prosesdə məktəb və valideyn arasında olan məsafənin azaldılmasına və valideynin təhsil müəssisəsi ilə təmasının daha şəffaf şəkildə təşkilinə xidmət edir.

Bu istiqamətdə əsas yeniliyə gəlincə, əvvəlki illərdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərin ölkə daxilində yerdəyişməsini elektron qaydada həyata keçirmək mümkün deyildi.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələri də sözügedən portala inteqrasiya olunub və növbəti tədris ilindən Naxçıvanda təhsil alan şagirdlərin ölkə daxilində yerdəyişməsi də elektron qaydada www.sy.edu.az portalı vasitəsilə aparılacaq. Azərbaycanda azyaşlıların məktəbə gedən yolunun elektronlaşdırılmasından 6 ilə yaxın vaxt keçir. Belə ki, 2015-ci ildən başlayaraq Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey, gimnaziyalarda və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərində I sinfə şagird qəbulu www.mektebeqebul.edu.az elektron sistemi vasitəsilə həyata keçirilir. I sinfə elektron sənəd qəbulu təhsil sahəsində əhaliyə göstərilən elektron xidmətlərin dairəsinin genişləndirilməsi, şagird kontingentinin uçot sisteminin təkmilləşdirilməsi, valideynlərin əlavə vaxt itkisinin qarşısının alınması məqsədilə tətbiq edilir.

Bu yenilik şəffaflığın təmin edilməsi, vaxt itkisinin aradan qaldırılması, cəmiyyətdə informasiya texnologiyalarından istifadə mədəniyyətinin formalaşması baxımından olduqca əhəmiyyətlidir. Prosesdə başlıca prinsip valideyn məmnunluğu və vaxta qənaətin təmin edilməsidir. Etiraf olunmalıdır ki, qəbul müddətində sistemdə müəyyən yüklənmələr baş verdiyindən, bəzən valideynlər qeydiyyat üçün bir neçə dəfə sistemə daxil olmaq məcburiyyətində qalırdılar.

Bu ildən sözügedən sistem daha da təkmilləşdirilib. Elə I sinfə elektron qəbul üzrə builki əsas yenilik də valideynlər üçün yarana biləcək texniki problemlərin vaxtında qarşısının alınması ilə bağlıdır. Bu il alternativ qeydiyyat mərkəzləri də fəaliyyət göstərir ki, bu da qeydiyyatda problem yaşayacaq şəxslərin bir mərkəzə deyil, bir neçə mərkəzə paylanması işini sürətləndirir. Bakı Şəhər Təhsil İdarəsi, həm yerli təhsil idarəetmə orqanları tərəfindən alternativ qeydiyyat mərkəzləri ilə bağlı sosial şəbəkələrdə də məlumatlar yerləşdirilib. Builki yeniliklərdən biri də tədrisi digər dillərdə olan uşaqların müsahibə mərhələsinin tam elektron formatda olması ilə bağlıdır. Keçən il bu, ikili sistem əsasında həyata keçirilirdi. Belə ki, ilkin vaxtlarda müsahibə üzbəüz oldu, sonradan ölkədəki vəziyyətlə əlaqədar onlayn formata keçirildi. Bu il bütün müsahibə prosesinin onlayn formatda həyata keçirilməsi təmin olunub. Bu, addım həm vətəndaşların, həm də müəllimlərin səhhətini qorumaq məqsədilə atılıb.

Birinci sinfə şagird qəbulu ilə bağlı həm də "Whatsapp" hesabı fəaliyyət göstərir. Vətəndaşlar "Whatsapp https://-api.whatsapp.com/send/?phone=994512067848" hesabı ((+994) 51 206 78 48) platforması vasitəsilə 2021-2022-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin I sinfinə şagird qəbulu prosesinin həyata keçirilməsinə dair suallara cavab tapa bilərlər.

Məqsəd birinci sinfə qəbul prosesi zamanı yaranmış sualları, həmçinin müraciətləri daha çevik və operativ cavablandırmaqdır. Bundan başqa, birinci sinfə şagird qəbulu ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsində Çağrı Mərkəzi yaradılıb. Qeyd edilən məsələ ilə bağlı sualı və yaxud çətinliyi olan vətəndaşlar həftəiçi 5 gün "146-0" nömrəsini yığmaqla Çağrı Mərkəzi ilə əlaqə yarada bilərlər.

Qeyd edək ki, 27 aprel saat 11:00-da növbəti tədris ili üzrə I sinfə şagird qəbulu üçün valideynlərin (digər qanuni nümayəndələrin) ərizələrinin onlayn qeydiyyatına start verilib.

Məktəb seçimi prosesinə isə aprelin 29-dan başlanılıb. Birinci sinfə qəbulla bağlı elektron qeydiyyat prosesi 14 sentyabr 2021-ci il tarixində başa çatacaq.

✍ ***Sevinc***

# Vitaminlərlə zəngin qarğıdalı məhsulları

## Menyu

***Ləzzəti ilə seçilən qarğıdalı bitkisi fərqli mövsümlərdə də istifadə edilə bildiyindən olduqca əlverişli qida növüdür. Mətbəxdə qarğıdalının unundan, qaynadılmış və partlamış növlərindən geniş istifadə olunur. Film izləyən zaman ən yaxşı müşayiətçi popkorndursa, yay aylarının da əvəzsiz ləzzəti qaynadılmış təzə qarğıdalıdır. Kalium anbarı olan qarğıdalı kalsium, dəmir, zülal, natrium B-6 və B12 vitaminləri ilə çox zəngindir. Bu taxıl bitkisinin tarixi kökləri Meksika və Mərkəzi Amerikaya söykənir.***



Tərkibi vitaminlərlə yanaşı, minerallarla da zəngindir. Vitaminlərlə çox zəngin olan qarğıdalı karbohidratlarla da zəngindir. Anemiyanın meydana gəlməsinin ən əhəmiyyətli səbəblərindən biri bədəndə B12 və folik turşularının qeyri-kafi olmasıdır.

Qarğıdalı, qırmızı qan hüceyrələrinin ehtiyac duyduğu qida maddələrini də təmin edir və anemiyanın ən əhəmiyyətli səbəblərindən biri olan dəmir çatışmazlığının aradan qaldırılmasında əhəmiyyətli rol oynayır.

Partlamış qarğıdalı həzm sisteminə yaxşı təsir bağışlayır, qəbizliyin qarşısını alır. Həmçinin tərkibində bir sıra faydalı vitamin və minerallar cəmləşir. Bu qida xorestrol səviyyəsini tənzimləmək baxımından olduqca yaxşıdır.

Hafta.az-ın "Menyu" rubrikasının bugünkü mövzusu da elə məhz bu universal bitkidir. Nəzərinizə çatdıraq ki, hazırda qarğıdalı bitkisini daha çox səyyar satışlarda görmək mümkündür. İstər iri magistral yolların kənarında, istərsə də insanların sıx istifadə etdiyi metro və dayanacaqlarda bu ərəfələrdə qarğıdalı satanları tez-tez görə bilərik. Qiymətə gəldikdə isə əsasən 3 qarğıdalı 1 manatadır.

Qarğıdalının Azərbaycan mətbəxindəki rolu, ondan düzgün istifadə qaydalarından danışan qida texnoloqu Ağa Salamov bildirdi ki, qarğıdalı unu daha çox Avropa və Türk mətbəxində balıq və şirniyyat hazırlamaq üçün geniş istifadə olunur. Artıq bizdə də bəzi restoranlarda dəb halını alıb:

"Belə ki, balaca kilkə balıqları qarğıdalı ununa batırıb qızardaraq, müştəriyə "xırçıldayan" formada təqdim edilir. Qarğıdalı partlamasına gəlincə, hazır şəkildə satılanların düzəldilməsində müəyyən yağlardan istifadə edilir. Yağların mənşəyi məlum olmadığından onun ev şəraitində hazırlanmasını daha məqbul hesab edir.

Unutmaq olmaz ki, 100 qr qarğıdalı partlamasında 450 kilokalori var. Bu da kinoteatrlarda 250 qramlıq qablarda satılan "popkorn"un tərkibində 1000 qram kalori olduğunu göstərir. Gündəlik kalori dəyəri hesablanaraq 100-150 qram istehlak edilə bilər".

Səyyar satılan məhsula gəldikdə isə ekspert hesab edir ki, ilk növbədə qarğıdalının da tərəvəz olduğunu yadımızdan çıxarmamalıyıq. Digər tərəvəzlər yuyularaq istehlak edildiyi kimi, qarğıdalı da təmizlənib, yuyulmalıdır:

"Buna görə də səyyar şəkildə satılan bişmiş qatğıdalı alarkən diqqətli olmaqda fayda var.

Bişmiş qarğıdalını üstüaçıq saxlamaq düzgün deyil. Heç olmasa qaynar suyun içində saxlanılmalıdır. Yaxşı olardı ki, bişirildikdən qısa müddət sonra istehlak edilsin. Yenə də məsləhətim ev şəraitində hazırlanmağındn yanadır. Qarğıdalı yeyən zaman duz normasını aşmaq da təhlükəlidir. Qarğıdalını duzlayanda günboyu 5 qramdan artıq olmayan duz miqdarının keçilməməsi vacib məqamdır".

✍ ***Banu***

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏŞƏKKÜRÜ



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyədə meşə yanğınlarının söndürülməsində dəstəyini göstərmiş ölkələrə təşəkkür edib. Türkiyə Prezidenti bunu öz tviter hesabında yazıb. "Meşə yanğınlarında mübarizəmizə dəstəyini, keçmiş olsun diləklərini, başsağlığını verən, köməyə hazır olduğunu bildirən, kömək göstərən bütün dost ölkə və təşkilatlara millətim adımdan təşəkkür edirəm. İnşallah, ən qısa müddətdə bu çətin vəziyyəti geridə qoyacağıq", - deyə Ərdoğan yazıb. Rəcəb Tayyib Ərdoğan bunun ardınca başda Prezident İlham Əliyev olmaqla digər ölkələrin rəhbərlərinə təşəkkür edib: "Xüsusilə, ilk andan etibarən dəstəklərini əsirgəməyən Can Azərbaycanın Prezidenti, dəyərli dostum İlham Əliyevə, Rusiya Prezidenti Vladimir Putinə, İspaniyanın Baş naziri Pedro Sançezə ölkəm adından təşəkkür edirəm".

### Həftənin DEPUTATI



Polisi döydüyü üçün toxunulmazlığına xitam verilərək saxlanılan deputat Eldəniz Səlimovun məhkəməsi keçirilib. Binəqədi rayon məhkəməsində keçirilən iclasda Səlimov barəsində məhkəmənin qərarıyla üç ay müddətinə həbs qətimkan tədbiri seçilib.

### Həftənin MÜƏLLİMİ



Avqustun 2-də müəllimlərin işə qəbulu üzrə növbəti test imtahanı keçirilib. İmtahanların 19-cu günündə tarix fənni üzrə müəllim olmaq istəyən namizədlər iştirak ediblər. İmtahanlara 3 min 236 namizəd dəvət olunub. Tarix fənni üzrə imtahanda ən yüksək balı Aytən Cəyiyeva toplayıb - (60 bal). Qeyd edək ki, 2021-2022-ci tədris ili üçün müəllimlərin işə qəbulu müsabiqəsinə iyulun 5-də start verilib. Mövcud pandemiya şəraitini nəzərə alaraq müsabiqənin test imtahanı mərhələsi Bakı, Abşeron, Sumqayıt, Gəncə, Masallı, Ağcabədi, Şirvan, Balakən, Quba, Şamaxı, Mingəçevir və Kürdəmirdə yaradılmış müvafiq imtahan mərkəzlərində keçirilir.

### Həftənin YARDIMI




ABŞ aşağı gəlirli 100 ölkəyə söz verdiyi 500 milyon doz koronavirus vaksinini avqustun sonunda göndərməyə başlayacaq. Hafta.az xəbər verir ki, bu barədə Ağ Ev açıqlama yayıb. Bildirilib ki, koronavirusla qlobal mübarizə çərçivəsində ABŞ 60-dan çox ölkəyə 110 milyon doz peyvənd göndərib.

### Həftənin MÜĞƏNNİSİ



Türkiyəli müğənni Yusuf Güney meşə yanğınlarının baş verdiyi ərazidə mübahisə yaradıb. İnsident Antalyanın Manavqat bölgəsinə aid Çardak məhəlləsində baş verib. Belə ki, o, Balamut adlı ərazinin yaxınlığında yanğını söndürməyə çalışan işçilərlə mübahisə edib. İddialara görə, Güney yanğını söndürən şəxslərin onun istədiyi yerə müdaxilə etmədiklərini deyərək məmurların üzərinə tərəf getməyə başlayıb və yanındakı tapança ilə havaya bir neçə dəfə atəş açıb. Məlumata əsasən, müğənni bölgədə olan polislər tərəfindən saxlanılıb və bölməyə aparılıb. Hazırda onun dindirilməsi davam edir.

### Həftənin AKTYORU



Aktyor İbrahim Çelikkol Milasda meşə yanğınları ilə mübarizə aparan heyətə dəstək olub. Aktyor Örendəki istilik elektrik stansiyasına doğru irəliləyən yanğını dayandırmaq üçün xortumla alovları söndürüb. Hadisə yerindən görüntülər paylaşan müğənni Mustafa Sandal İbrahim Çelikkol və Onur Yılmaza etdikləri fədakarlığa görə təşəkkür edib: "Göcekdəyəm, yollar bağlıdır, hadisə yerinə çatmaq şansım yoxdur. Əziz qardaşlarım Onur Yılmaz və İbrahim Çelikkol Marmarisdəki yanğın yerində könüllü işləyirlər. Mənə göndərdikləri video və mesajları sizinlə paylaşıram. Yanğın istilik elektrik stansiyasına yaxınlaşdığını və vəziyyətin ağır olduğunu söyləyirlər. Göz görə-görə buna icazə verməməliyik. Səlahiyyətli şəxslərdən dərhal tədbir görməsini xahiş edirəm".

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Amerikalı idmançı Tara Davis Tokio Olimpiadasında uzunluğa tullanarkən...**

# Ələt İqtisadi Zonası

**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

Ələt Azad İqtisadi Zonasının xüsusən qeyri-neft məhsulların istehsalı baxımından yeni sərmayələrin cəlb edilməsinə imkan verəcəyi gözlənilir. ▸▸ Səh. 4

## STATİSTİKA



- Statistik göstəricilərə görə, dünyada ən çox keçi təsərrüfatı ABŞ-dadır.
- Bu gün dünyadakı keçilərin ümumi sayı 450 milyondan çoxdur.
- Keçilər növlərindən asılı olaraq 10-120 kiloqram çəkiyə malik olur.
- Bir erkək keçi 50 baş sürünü idarə edə bilir.



▸▸ Səh. 7

# Yaşayış evinin önündəki zibil qutuları narazılıq yaratdı